**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

***Əlyazması hüququnda***

**Səfərova Çinarə Elşad qızının**

# XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ ABŞ-IN HƏRBİ STRATEGİYASI

**İxtisaslaşma: HSM – 060211 - Regionşünaslıq (Amerikaşünas)**

**Magistr elmi dərəcəsi almaq üçün**

**təqdim olunmuş**

**DİSSERTASİYA**

**Elmi rəhbər: f.ü.f.d., dos. K.C.Ağayeva**

**Bakı-2017**

# MÜNDƏRİCAT

**GİRİŞ..........................................................................................................3-8**

**FƏSİL 1. XXI ƏSRİN ƏVƏLLƏRİNDƏ ABŞ-ın HƏRBİ STRATEGİYASININ ƏSAS CƏHƏTLƏRİ..................................................................................9-35**

1.1. ABŞ-ın hərbi strategiyasının konseptual əsasları...........................................9-22

1.2. Müasir dövrdə ABŞ-ın hərbi strategiyasının formalaşmasına təsir göstərən amillər..........................................................................................................22-35

**FƏSİL 2. ABŞ-ın HƏRBİ STRATEGİYASININ MÜASİR VƏZİYYƏTİ...36-64**

2.1. XXI əsrin əvəllərində ABŞ-ın hərbi strategiyasının regional aspektləri.......36-50

2.2. ABŞ-da hərbi-strategeji tətqiqat mərkəzləri..................................................50-64

**NƏTİCƏ......................................................................................................65-67**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI...........................................68-72**

# GİRİŞ

**Mövzunun aktuallığı.** XXI əsrin əvvəllərində Amerika Birləşmiş Ştatlarının (ABŞ) hərbi strategiyası, bu strategiyaya əsaslanaraq dünyada baş verən geosiyasi proseslərdə fəal iştirakı və beynəlxalq təhlükəsizliyin təmin olunmasında ABŞ-ın hərbi strategiyasının yerinin və rolunun elmi cəhətdən öyrənilməsi böyük əhəmiyyət kəsb edir.

İstənilən ölkənin təhlükəsizlik sistemi, onun daxili inkişaf səviyyəsindən, xarici əlaqələrindən və təhlükəsizliyini təmin etməyə məsul olan təşkilatların fəaliyyət qabiliyyətlərindən asılıdır. Təhlükəsizlik orqanlarının fəaliyyət dairəsi çox genişdir. Daxili təhlükəsizlikdən xarici təhlükəsizliyə, kəşfiyyatdan hüquqa, iqtisadiyyatdan beynəlxalq əlaqələrə qədər olan sahələri əhatə edir. Bu səbəbdən də, beynəlxalq təhlükəsizliyin təmin olunmasında ABŞ-ın rolunun öyrənilməsi məsələyə sistemli yanaşmanı tələb edir.

XXI əsrin əvvəllərində beynəlxalq təhlükəsizliyə yeni təhdidlər yaranmışdır. Başqa sözlə, hərbi cəhətdən qüdrətli dövlətlər arasında rəqabətdən doğan "köhnə təhlükə"lər arxa planda qalmışdır. Artıq nüvə qarşıdurması və digər güclü silahların istifadəsi ilə aparılacaq müharibə təhlükələri "köhnə" hesab edilir. "Yeni təhlükə"lərə beynəlxalq terrorizm, kütləvi qırğın silahlarının yayılması, daxili hərbi münaqişələr və beynəlxalq hərbi müdaxilələr, ekoloji tarazlığın pozulması və s. problemlər daxildir. Bu təhlükələrin qarşısının alınmasında ABŞ əsas beynəlxalq fiqurlardan biri kimi çıxış edir, lakin bu ölkənin qeyd olunan sahələrdəki fəaliyyəti heç də həmişə müsbət nəticələnmir. Bu da ABŞ-ın hərbi-siyasi strategiyasının tədqiqinin nə dərəcədə aktual olduğuna dəlalət edir.

ABŞ XXI əsrə tək fövqəlgüc və qlobal hegemon lider kimi daxil olmuşdur. İstər "soyuq müharibə" dövründə, istərsə də ondan sonra mövcud olan və ABŞ-ın iştirak etdiyi hərbi-siyasi təşkilat və qruplaşmalarda Pentaqon əsas söz sahibi olmuşdur. Başqa sözlə ABŞ-ın dünyada istər hərbi güc baxımından, istərsə də nüvə silahı və dünyanın istənilən nöqtəsinə təsir göstərə bilən hərbi qüvvələrə malik yeganə ölkəsidir. Bir yanda Atlantik-Qərb, Avropa-Türkiyə arasında qalan bölgədə

NATO, digər tərəfdə Cənubi və Şərqi Asiya başda olmaqla müxtəlif ikitərəfli və çoxtərəfli razılaşmalara söykənən müdafiə ittifaqları ABŞ-ın hərbi gücünün qlobal xarakterini sübut edir. Müasir dövrün geosiyasi proseslərinin əsas reallığı onun hərbi gücünün qəbul edilməsidir. ABŞ dünyadakı hərbi potensialın 38%-nə malikdir. Bu o deməkdir ki, beynəlxalq təhlükəsizliyin tam təmin olunması ABŞ-ın iştirakı olmadan qeyri-mümkündür. Bununla bağlı olan məsələlər həm də tədqiqat obyekti olaraq maraq doğurur.

XXI əsrin əvvəllərində Azərbaycan Respublikası ABŞ-la bir çox sahələrdə, o cümlədən təhlükəsizlik sahəsində əməkdaşlıq edir. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsininsülh yoluilə tənzimlənməsi prosesində ABŞ vasitəçi ölkələrdən (Minsk qrupunun həmsədr ölkəsidir) biridir. Eyni zamanda ABŞ-ın formalaşdırdığı beynəlxalq antiterror koalisiyasının fəal üzvlərindən biri də məhz Azərbaycandır. Bundan başqa, respublika müxtəlif regionlarda sülhyaratma proseslərində ABŞ-la əməkdaşlıq əlaqələrinə malikdir. Bütün bunlar onu qeyd etməyə imkan verir ki, ABŞ hərbi-siyasistrategiyasının araşdırılması Azərbaycan-ABŞ münasibətlərinə aydınlıq gətirmək baxımından da əhəmiyyətlidir.

**Mövzunun öyrənilmə dərəcəsi.** Tədqiqat prosesində mövzu ilə bağlı mövcud ədəbiyyat bazasından, nəşr olunmuş rəsmi sənədlərdən geniş istifadə olunmuşdur. Dissertasiya işinin yazılmasında ingilis, türk, azərbaycan və rus dillərində olan ədəbiyyatlardan, qəzet və jurnallardan, internet resurslarından istifadə edilmişdir. 2001-ci il 11 sentyabr terror hadisələrindən sonra ABŞ-ın hərbi strategiyasına həsr olunmuş əsərlər də tədqiqat zamanı daim diqqət mərkəzində olmuşdur. Bu əsərlərə misal olaraq H.İnaç, F.Aktaşın "2001-ci il 11 sentyabr terror hadisələrinin ABŞ-ın təhlükəsizlik bürokratiyasına təsirləri", Y.Yaqubovun "Terrorizm: Yaranma səbəbləri və şəraiti", R.Pilların "Terrorizm və ABŞ-ın xarici siyasəti", Evrən Baltanın "Beynəlxalq siyasət və təhlükəsizlik" əsərlərini qeyd etmək olar. E.Nəsirovun "ABŞın antiterror doktrinası və onun tətbiqi mexanizmləri" kitabında ABŞ-ın terrorla mübarizə siyasəti, bu siyasətdən irəli gələrək Əfqanıstan və İraqa müdaxilələri və bu siyasəti dəstəkləyən doktrinalardan bəhs olunmuşdur. R. Perlın "Terrorizm, Gələcək və ABŞ-ın xarici siyasəti" əsərində ABŞ-da baş verən 11

sentyabr terror hadisəsinin ABŞ-ın xarici siyasətinə təsiri, bu hadisələrdən sonra xarici siyasətdə yaranan yeni prioritetlər öz əksini tapmışdır.

XXI əsrin əvvəllərində ABŞ-ın hərbi strategiyasının regional aspektləri ilə bağlı aparılan araşdırmalara Ə.Həbibəylinin "Hərbi bazalar-xarici siyasətin əsas aləti", V.Tağıbəylinin "İranı mühasirəyə alan Amerika hərbi bazaları", Linn E.Davis, Stays L.Peticon, Melani V.Sissan, Stefan M.Vorman və Maykl C. Makneminin "ABŞ-ın xaricdəki hərbi bazaları hansı strateji vəziyyətdədir?", Gökhan Erelinin "ABŞ-ın yumşaq güc ünsürləri" tədqiqatlarını misal göstərmək olar. Magistrlik dissertasiyasının yazılması zamanı Dilek Cahit Armağanın "ABŞ-ın milli təhlükəsizlik strategiyasının şifrələri və Türkiyə", Gökhan Binzatın "ABŞ sənədlərində Asiya-Sakit okean strategiyası", C.Daforun "ABŞ-ın hərbi bazalarının şəbəkə toru", Paul Frostun "Müsəlman dünyasında genişlənən arzuolunmayan ABŞ hərbi gücünün nəticələri" kimi kitablardan istifadə olunmuşdur. Yuxarıda adları qeyd olunan müəlliflərin tətqiqat işlərində ABŞ-ın müasir dövrdə vəziyyəti, müxtəlif regionlardakı hərbi varlığı və dünya dövlətlərinin buna münasibəti haqqında bəhs olunmuşdur.

ABŞ-ın hərbi strategiyasının konseptual əsasları federal qanunvericilikdə öz əksini tapsa da Rod Poversin "ABŞ-ın hərbi strategiyasının əsasları", Gökhan Öçalanın "Soyuq müharibədən sonra ABŞ-ın milli təhlükəsizlik strategiyaları", Lora Aquarın "Terrorizmə qarşı mübarizə strategiyası", Kim R.Holmes, Henri R.Nau, Hell Deylin "Obama doktrinası: ABŞ-ın xarici siyasətinə manelər" kimi tətqiqat işlərində də təhlil olunmuşdur. Bundan başqa, E.Kandemirin "ABŞ prezidentləri C.Buş və B.Obama dövründə nəşr olunan milli təhlükəsizlik strategiyalarında ittifaq anlayışı və S.Voltun ittifaq nəzəriyyəsi" kitabında müxtəlif illərdə qəbul olunmuş ABŞ-ın hərbi strategiyalarının təhlili verilmişdir. Cimmi Karterin "ABŞ-ın nüvə strategiyasının ikili standartı sülhə "quyu qazır"", Çağrı Erhanın "ABŞ-ın milli təhlükəsizlik anlayışı" əsərlərində ABŞ-ın önəm verdiyi regionlarla bağlı hazırladığı gələcək planlar barədə məlumatlar verilir.

Tədqiqat prosesinə cəlb edilmiş və ABŞ-ın hərbi-strateji tətqiqat mərkəzlərinə həsr olunmuş əsərlərə misal olaraq R. Smirnovun "ABŞ-ın hərbi-elmi fəaliyyəti",

S.Yakuşevin "ABŞ-ın Müdafiə Nazirliyində hərbi tədqiqatın təşkili", Sait Yılmazın "ABŞ silahlı qüvvələrində baş verən dəyişikliklər və yeni müdafiə strategiyası" tətqiqat işlərini göstərmək olar. Bu işlərdə hərbi-nəzəri xarakterli tədqiqatlar, "RAND Corporation" və Müdafiə Tədqiqatları İnstitutu haqqında, Amerika Birləşmiş Ştatlarında hərbi-elmi fəaliyyətin hansı mexanizmlər əsasında planlaşdırılması öz əksini tapmışdır.

İstifadə olunmuş materiallar arasında dövri mətbuat və İnternet resursları da əhəmiyyətli yer tutur.

Qeyd olunan materiallardan istifadə bir tərəfdən problemin hansı səviyyədə öyrənildiyini aşkara çıxarmağa, digər tərəfdən tədqiqatı tarixi və mövcud siyasi reallıqlar nəzər alınmaqla sistemli şəkildə aparmağa kömək etmişdir.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyektini XXI əsrin əvəllərində ABŞ-ın hərbi strategiyası və bu strategiyanı şərtləndirən amillər təşkil edir.

**Tədqiqatın predmeti.** 2001-ci il 11 sentyabr terror hadisəsindən sonra ABŞ-ın hərbi strategiyasının yenidən formalaşmasına təsir göstərən amillər, bu hücum nəticəsində ABŞ qanunvericiliyində qəbul olunan konsepsiyaların hərbi sahəyə təsiri, XXI əsrin əvvələrində müxtəlif ərazilərdə xüsusilə, Asiya-Sakit Okean, Yaxın Şərq, Afrika, Avropa, Latın Amerikası kimi regionlarda ABŞ-ın hərbi bazalarını yerləşdirməsi və onların fəaliyyəti tədqiqat işinin predmetinə daxildir.

**Dissertasiyanın məqsədi.** Tədqiqat işinin əsas məqsədi, XXI əsrin əvvəllərində ABŞ-ın hərbi strategiyası, bu strategiyanın formalaşmasına təsir göstərən amillər və onun regional və beynəlxalq münasibətlərə təsirini öyrənməkdən ibarətdir.

**Dissertasiyanın vəzifələri.** Müəyyən olunmuş məqsədə çatmaq üçün aşağıdakı vəzifələri yerinə yetirmək nəzərdə tutulur:

- ABŞ-ın xarici siyasətinin istiqamətlərini müəyyənləşdirmək
- ABŞ-ın hərbi strategiyasının əsasını təşkil edən konsepsiyaları təhlil etmək;
- Müasir dövrdə ABŞ-ın hərbi strategiyasının yenidən formalaşmasına təsir göstərən amilləri müəyyənləşdirmək;
- XXI əsrin əvvəllərində ABŞ-ın hərbi strategiyasında əhəmiyyətli rola malik olan regionları aydınlaşdırmaq ;

- Müasir dövrdə ABŞ-ın hərbi strategiyasının formalaşmasına təsir göstərən hərbi-strateji tədqiqat mərkəzlərinin fəaliyyətinə aydınlıq gətirmək;

**Tədqiqatın metodoloji əsasları:** Magistr dissertasiyasının yerinə yetirilməsi zamanı müxtəlif metodlardan istifadə olunmuşdur. İş prosesində qarşıya qoyulan məqsədlərə çatmaq, ABŞ-ın hərbi strategiyasının fəaliyyət sferası izləmək, problemlərin mahiyyətini açmaq, ümumiləşdirmələr aparmaq prosesində müqayisəli təhlil, sintez, deduksiya və induksiya kimi metodlar tətbiq olunmuşdur.

**Dissertasiyanın elmi yeniliyi.** Məlumdur ki, ABŞ-ın müasir dövrdə hərbi fəaliyyəti ilə bağlı, az sayda, müxtəlif səpkili əsərlər yazılmışdır. Problem ətrafında ədəbiyyat bazası mövcud olsa da, ABŞ-ın XXI əsrin əvvəllərində həyata keçirdiyi hərbi strategiyalarının təhlili, 11 sentyabr terror hadisələrindən sonra təhlükəsizlik sistemində etdiyi struktur dəyişikliklər, hərbi-tadqiqat mərkəzlərinin fəaliyyət sferası, iş prinsipləri və onların apardığı araşdırmaların rəsmi Vaşiqtonun həyata keçirdiyi xarici siyasətə təsiri Azərbaycanda məhz bu işlə elmi dövriyyəyə gətirildiyi üçün tətqiqat işinin elmi yeniliyi kimi təqdim edilir. Eyni zamanda ABŞ-ın hərbi strategiyasının azərbaycanlı müəllifin baxış bucağı altında və neytral şəkildə qiymətləndirilməsini də tədqiqatın elmi yenilikləri sırasına daxil etmək olar.

**Tədqiqat işinin təcrübi əhəmiyyəti.** Dissertasiyanın özündə ehtiva etdiyi məlumatlar, alınan nəticələr və aparılmış ümumiləşdirmələr ABŞ-ın XXI əsrdə həyata keçirdiyi hərbi strategiyası ilə bağlı bir çox suallara aydınlıq gətirilməsi baxımından əhəmiyyətlidir.

İş prosesində əldə olunmuş nəticələr öyrənilən problemlə bağlı müəyyən proqnozların verilməsinə və qiymətləndirmələrin aparılmasına yardım edə bilər. Bundan başqa, dissertasiyanın materialları əsasında ABŞ-ın hərbi strategiyasının onun milli maraqlarının təmin olunmasında rolu, xarici siyasət prioritetlərinin reallaşdırılmasında hərbi strategiyanın əhəmiyyəti ilə bağlı tədqiqatların aparılması, analitik materialların hazırlanması mümkündür.

Tədqiqat işində yer almış materiallar problemlə bağlı dərsliklərin, metodik vəsaitlərin, tədris proqramlarının, mühazirə mətnlərinin hazırlanmasında da əhəmiyyətli ola bilər.

**Tədqiqat işinin aprobasiyası**. Magistrlik dissertasiyasının əsas müddəaları, müəllifin dərc olunmuş, aşağıda göstərilmiş məqalə və tezislərində öz əksini tapmışdır:

1. Səfərova Ç. ABŞ-ın xaricdəki hərbi bazaları // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 93-ci ildönümünə həsr olunmuş illik konfransdakı məruzələrinin tezisləri (II Hissə). Bakı 2016. s. 343-344.
2. Səfərova Ç. Əfqanıstana edilən hərbi müdaxilənin nəticələri// XIV Beynəlxalq tələbə elmi-praktik konfransının materialları. Qərb Universiteti, 2016. s. 255-256
3. Səfərova Ç. ABŞ-ın "Asiya-Sakit Okean" siyasəti // (ADU-nun elmi xəbərləri, №3 - çapdadır)
4. Səfərova Ç. ABŞ-ın beynəlxalq terrorizmlə mübarizə siyasəti // (Beynəlxalq münasibətlərin aktual problemləri, №1 - çapdadır)

**Dissertasiyanın strukturu.** Magistr dissertasiyası "Giriş", iki fəsil, dörd paraqraf, "Nəticə" və "İstifadə olunmuş ədəbiyyat siyahısı"ndan ibarətdir.

# FƏSİL 1. XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ ABŞ-IN HƏRBİ STRATEGİYASININ ƏSAS CƏHƏTLƏRİ

## 1.1. ABŞ-ın hərbi strategiyasının konseptual əsasları

XXI əsrdə Amerika Birləşmiş Ştatlarının hərbi strategiyasının əsas cəhətlərini müəyyənləşdirmək üçün ilk növbədə bu hərbi qüvvənin formalaşması tarixinə, ordunun quruluşuna, güc potensialına baxmaq lazımdır. Birləşmiş Ştatların Silahlı Qüvvələrinin döyüş gücü, hərbi- texniki potensialı, şəxsi heyətinin sayı bu dövlətin qlobal güc kimi siyasət yürütməsini təmin edir.

ABŞ ordusu uzun tarixi inkişaf yolu keçmiş, müharibələrdə formalaşmışdır. XVIII-XIX əsrlərdə Amerika ərazisində öz gücünü sınayan ordu XX əsrdə xarici əməliyyatlara, müharibələrə qoşulmuşdur. Ordunun dünyanın müxtəlif yerlərində hərbi əməliyyatlar aparmaq qüdrəti artdıqca, Birləşmiş Ştatlar bir dövlət, siyasi-iqtisadi güc kimi qlobal miqyasda yerini, mövqeyini möhkəmləndirməyə başlamışdır.

ABŞ ordusu 1775-ci ildə 13 ştatdan ibarət Konqres tərəfindən Böyük Britaniyaya qarşı müharibənin gedişində, müstəqillik uğrunda mübarizə illərində yaradılmışdır. Birləşmiş Ştatların federal Silahlı Qüvvələrinə bir sıra qoşun birləşmələri aiddir: Quru Qoşunları, Dəniz Korpusu, Dəniz Qüvvələri, Hava Qüvvələri və Sahil Təhlükəsizliyi Qüvvələri. İlk hərbi birləşmə olan Quru Qoşunları 1775-ci il iyunun 14-də yaradılmışdır. Hazırda bu qoşunda 76.000 zabit, 401.000 əsgər xidmətdədir. Hava Qüvvələri Milli Təhlükəsizlik Aktı əsasında 1947-ci ildə yaradılmışdır. Hava qüvvələrinin əsas vəzifəsi, ABŞ-ı (onun maraqlarını) hava sahəsinin istismar edilməsi yolu ilə müdafiə etməkdir. Bu vəzifəni yerinə yetirmək üçün Hava Qüvvələrində döyüş təyyarələri, tanker təyyarələri, yüngül və ağır bombardman təyyarələri, nəqliyyat təyyarələri və vertolyotlar fəaliyyət göstərir. Bundan başqa hərbi peyklərə, stratejik nüvə ballistik raketlərinə nəzarət edir. Hava

qüvvələrində təxminən 69.000 vəzifəli və təxminən 288.000 üzv var. Dəniz Qüvvələrinin əsası rəsmi olaraq 1775-ci ildə qoyulmuşdur. Dəniz Qüvvələrinin Amerika Birləşmiş Ştatlarının milli maraqlarını qorumaq üçün istədiyi yerdə və istədiyi vəziyyətdə dənizlərdən istifadə etmək imkanı vardır. Bundan əlavə müharibə zamanında Hava Qüvvələri Donaması ilə birlikdə hava müdafiəsini təmin edir. Donanmada təyyarə gəmiləri çox vaxt sabit platformaların qeyri-mümkün olduğu sahələrə yerləşdirilir. Bir təyyarə gəmisi təxminən 80 təyyarə daşıyır. Dəniz Qüvvələrində 54 min zabit və 324 min motros xidmətdədir [54].

XX ərsdə baş verən dünya müharibələri, "soyuq müharibə illəri", Koreya və Vyetnam müharibələri, eləcə də dünyanın bir çox yerlərində keçmiş SSRİ və Çin ilə aşkar-gizli rəqabətin qanlı müharibələrə, döyüşlərə çevrilməsi Birləşmiş Ştatlar ordusunun inkişaf istiqamətlərinin müəyyənləşməsində mühüm rol oynamışdır. SSRİ-nin çökməsi ilə dünya reallıqlarının dəyişməsi böyük ölkələrin, o cümlədən Birləşmiş Ştatlar ordusunun qarşısına yeni vəzifələr qoydu. XX əsrin sonuncu onilliyində Birinci İraq müharibəsi, Bosniya-Herseqovina müharibəsi, Kosova müharibəsi, BMT çərçivəsində sülhyaratma əməliyyatlarına və s. qoşulan ABŞ Silahlı Qüvvələri üçün böyük təcrübə, özünütəsdiq, gücünü nümayiş etdirmək forması, meydanı olmuş, növbəti minillik üçün fəaliyyət əsasları yaranmışdır.

Amerika Birləşmiş Ştatları XXI əsrə beynəlxalq güc tarazlığı piramidasının ən üstündə, fövqəlgüc, qlobal və hegemon lider kimi daxil olmuşdur. ABŞ-ın liderliyi qlobal gücün siyasi, iqtisadi, mədəni və hərbi formaları üzrə ən yüksəksəviyyədə olmasından qaynaqlanır. ABŞ-ın hərbi gücünün təməl çərçivəsini "soyuq müharibə" dövründə formalaşan siyasi və hərbi regional ittifaqlar ilə rəsmi güc proyeksiyası təşkil edir. ABŞ hərbi güc baxımından, həm nüvə silahına, həm də dünyanın hər yerinə çata bilən qüvvələrə sahib yeganə ölkəsidir. Bir yanda Atlantik-Qərb, Avropa-Türkiyə arasında qalan bölgədə NATO, digər tərəfdə Cənubi və Şərqi Asiya başda olmaqla müxtəlif ikitərəfli və çoxtərəfli razılaşmalara söykənən müdafiə ittifaqları ABŞ hərbi gücünün xarici qüdrətini sübut edir. ABŞ dünyanın hərbi gücünün 38 faizinə sahibdir. Birləşmiş Ştatların beynəlxalq problemlərin həllindəki yeri 11 sentyabr hadisələrindən sonra "liderlik" rolundan "dünya polisi"

roluna keçmişdir. ABŞ bir yandan kütləvi qırğın silahlarının yayılmasının qarşısını almağa çalışır, digər yandan da beynəlxalq terrorizmlə mübarizə aparır.

SSRİ-nin liderlik etdiyi "Varşava Paktı"nın dağılması ilə 1990-cı ilin əvvəlindən etibarən ABŞ prezidenti Corc Buşun "Yeni dünya nizamı" adlandırdığı mərhələ başladı. ABŞ rəhbərliyi ölkənin dünyada tək "super güc" olduğunu sübut etmək və bu vəziyyəti qorumaq məqsədilə yeni dövr üçün strategiyalar hazırlayırdı. "Soyuq müharibə" illərindən sonra qəbul edilən 1991-ci il strategiyasında hərbi sahədə reallaşdırılacaq hansısa bir dəyişmə ilə bağlı təmkinli addımların atılmasının vacibliyi vurğulanırdı. Srategiyada tək və konkret düşmən yerinə, müxtəlif təhdid mənbələri ilə mübarizə aparılması, SSRİ hədəsinin ortadan qalxmasından sonra silahsızlanmaya başlanılması, yeni "düşmənlərin" ABŞ maraqlarına zərər verə biləcəyi daha çox vurğulanırdı. Strategiyada "yüksəlməyə başlayan yeni güc mərkəzlərinin varlığına baxmayaraq, ABŞ-ın dünyada siyasi, iqtisadi və hərbi sahədə güclü təsir imkanına malik olması baxımından tək qlobal güc olması" fikri qeyd olunur. Digər bir tərəfdən, ABŞ rəhbərliyi "dünyanın bütün təhlükəsizlik məsələlərini həll edəcək "dünya polisi ola bilmərik" fikrini irəli sürürdü. "Amma, çətin vəziyyətdə qalan ölkələrə yardım üçün dəstək ala biləcəkləri ölkə ola bilərik" ifadəsi ilə ABŞ-ın beynəlxalq problemlərə müdaxilə edəcəyi bildirilir.

ABŞ-ın azad və müstəqil ölkə kimi qalmasının və təhlükəsizliyinin təmin olunmasının əsas hədəf olduğu vurğulanan strategiyada aşağıdakı məsələlərə üstünlük verdiyi bildirilir: ABŞ-ın və müttəfiqlərinin təhlükəsizliyini təhdid edəcək hər cür hücumun qarşısının alınması; məhdud ballistik raket hücümlarının qarşısını almaq üçün sistemlərin inkişaf etdirilməsi; dünyada silahlanma xərclərinin məhdudlaşdırılması; inkişaf etmiş hərbi texnologiyalar vasitəsilə nüvə, kimyəvi və bioloji silahların düşmən ölkə və qrupların əlinə keçməsinin qarşısının alınması; regional hərbi tarazlığın təmin olunması.

Bill Klinton administrasiyası 1999-cu ildə qloballaşma prosesini önə çıxaran "Yeni əsr üçün Milli təhlükəsizlik strategiyası" hazırlamışdır. Bu strategiyanın mühüm yeniliyi "Milli kosmik müdafiə" sitemінə geniş yer ayrılması idi. ABŞ-a qarşı uzaq mənzilli kütləvi qırğın silahları istehsal edən dövlətlərdən təhdidlərin

olduğu vurğulanaraq, “axmaq dövlətlərdən” gələcək Qitələrarası Ballistik Kosmik (ICBM) hücum ehtimalının hər keçən gün artdığı ifadə edilmişdir. Mövcud təhdidi aradan qaldırmaq üçün ABŞ-ın 2000-ci ildən etibarən kosmik müdafiə sistemini təkmilləşdirmək üçün 1972-ci il tarixli Anti-Ballistik Raket Müqaviləsində lazımlı dəyişikliklərin ediləcəyi ifadə olunurdu [18, 82-86].

Milli Təhlükəsizlik Strategiyalarında hərbi təhlükəsizlik hədələrinin əksini tapması ilə yanaşı, ABŞ-ın Müdafiə Nazirliyinin hazırladığı hərbi konsepsiyalarda da bu mövzuya xüsusi diqqət yetirilmişdir.

ABŞ-ın 43-cü prezidenti Corc Buşun hakimiyyəti dövründə (2000-2008) iki dəfə “Milli Təhlükəsizlik Strategiyası” hazırlanmışdır. 2002-ci il sentyabr tarixli “Milli Təhlükəsizlik Strategiyası” 2001-ci il 11 sentyabr terror hücumlarından bir il sonra təsdiqləndi. 2005-ci ildə nəşr edilmiş “Milli Təhlükəsizlik Strategiyası” isə 2006-ci ilin mart ayında qəbul olundu [27].

ABŞ-ın hərbi (Pentaqon) və iqtisadi (Dünya Ticarət Mərkəzi) hegemonluğunun simvolu olan binalara yönələn 2001-ci 11 sentyabr hücumlarıölkənindaxili və xarici siyasətində dəyişikliklərə səbəb oldu. Hücumlardansonra “etibarsızlıq hissi keçirən” ABŞ terrorizmə qarşı mübarizə siyasəti həyata keçirməyə başladı. Corc Buşun “bütün dünyada terrorla mübarizə” ifadəsi Klintonun “demokratik sülh və beynəlxalq ədalət ifadəsi”ni yerlə bir etdi və hərbi gücdən istifadədə qarşıya çıxan maneələri aradan qaldırdı. “Soyuq müharibə” illərindən sonrakı dövrdə ABŞ-ın nüfuzunu qloballaşdırmasına maneə olan böyük dövlətlərin yerini 11 sentyabrdan sonra terrorçu təşkilatlar və onlara dəstək olan rejimlər tutdu.

Əslində 11 sentyabr hücumları “soyuq müharibə” illərinin bitməsindən sonra öz hegemonluğunu təminetməyə çalışan və bu istiqamətdə öz xarici siyasətini formalaşdıran ABŞ-ın məqsədinə çatmasına böyük zərbə endirmişdi. ABŞ toxunulmazlıq və yenilməzlik imicini sarsıdan hücumların nəticəsində nüfuzunu bərpa etmək və hegemonluğunu yenidən təmin etmək üçün təhlükəsizlik siyasətində dəyişikliklərə başladı. President Corc Buş bu dəyişiklik qərarını 2002-ci il iyunun 1-də Amerika Hərbi Akademiyasında söylədiyi nitqində açıqladı: “Terrordan

müdafiə ilə kifayətlənmək olmaz, terrorla mübarizə aparmalıyıq. Müharibəni düşmən ərazisində aparmalı, planlarını pozmalı və düşməndən gələ biləcək təhdidləri təsirsiz hala gətirməliyik. Yaşadığımız dövrdə təhlükəsizliyə gedən tək yol hərəkətdən keçir. Hər bir xalq indi qərar qəbul etmək məcburiyyətindədir. Ya bizimləsiniz, ya da terrorçuların yanındasınız. Bu gündən sonra terrorizmi qoruyan və dəstəkləyən hansı rejim olursa-olsun Amerika tərəfindən düşmən rejim kimi qəbul ediləcək" [58]. Bu çıxışdanbelə nəticəyə gəlmək olurdu ki, artıq Birləşmiş Ştatlar hərbi baxımdan qlobal miqyaslı addımlara hazırlaşır.

Hərbi gücdən istifadəni xarici siyasətin əsas vasitəsinə çevirən və "Buş doktrinası" kimi tanınan bu yanaşma ABŞ-ın özünə təhlükə saydığı, istədiyi hədəfi vurmaq imkanı yaratmışdır. "Buş doktrinası" 2002-ci ilin sentyabrında ictimaiyyətə açıqlanmış "Milli Təhlükəsizlik Strategiyası"nın prinsiplərində dəqiq şəkildə ifadə olunmuşdur. Strategiya sənədində göstərilmiş önləyici hücumdan istifadə prinsipi, kütləvi qırğın silahlarına sahib olan təcavüzkar dövlətlərə və terror təşkilatlarına qarşı gələcək hərbi müdaxilələrə haqq qazandırmışdır.

Əfqanıstana qoşun yeridilməsindən sonra çıxış edən prezident C. Buşun fikirlərində milli təhlükəsizliyin əsas istiqamətləri əksini tapmışdır: "Bu gün düşmənlərimiz sivil xalqların siyasi hədəflərini reallaşdırmaq üçün terrora dəstək verən və onlardan istifadə edən rejimlər üzərində nələr edə biləcəklərimizin şahidi oldular. Əfqanıstan xilas oldu. Koalisiya qüvvələri "Taliban"ı və "Əl-Qaidə"ni "ovlamağa" davam edir. Buna baxmayaraq, minlərlə təhsilli terrorçu, Şimali Amerika, Cənubi Amerika, Avropa, Afrika, Yaxın Şərq və Asiyada qalmaqdadır. Prioritetimiz əvvəlcə qlobal terror təşkilatlarını yox etmək və terrorçuların planlarınıtəsirsiz hala gətirməkdir" [58, 5].

Prezident C.Buş 2002-ci il yanvarın 29-da Konqresdəki "Ölkədə vəziyyət haqqında" proqram xarakterli çıxışında ABŞ-ın terrorizmə qarşı mübarizə hədəflərini açıqladı. Əfqanıstanda Taliban rejiminin sarsıdılmasına baxmayaraq, C.Buş "terrorizmlə mübarizənin hələ yenicə başladığını, Şimali Koreya, İraq və İran dövlətlərinin beynəlxalq terrorizmi hərtərəfli müdafiə və himayə etdiyini, bu dövlətlərin dünyada sülh üçün böyük təhlükə olduğunu" bəyan etdi.

ABŞ 11 sentyabr 2001-ci il terror aktından sonra kütləvi qırğın silahı hazırlamaq istəyən İraq,  Şimali Koreya və İranı "şər üçbucağı" elan etdi. "Şər üçbucağı" na qarşı antiterror əməliyyatlarının keçirilməsi, Səddam Hüseynin hakimiyyətdən uzaqlaşdırılması üçün ABŞ rəsmilərinin qonşu Türkiyə və ərəb ölkələri başçıları ilə danışıqları intensivləşdi. C.Buş bildirmişdir ki, ABŞ bu dövlətlər tərəfindən kütləvi qırğın silahlarının əldə edilməsinə yol verməyəcək. Belə cəhdlərə, onları reallaşdıran siyasi rejimlərin varlığına son qoyacaqdır. Bu sənəd, mahiyyət etibarilə ABŞ-ın "terrorizm yuvası" adlandırdığı dövlətlərə qarşı birtərəfli qaydada güc tətbiqinə haqq qazandıran, bunun üçün hüquqi baza yaradabiləcək sənəd idi [10, 91]. Yeni hərbi doktrinaya əsasən, ABŞ-ın xarici siyasəti 3 təməl prinsipə əsaslanır:

Birincisi, ABŞ-ın misilsiz hərbi üstünlüyünün qorunub saxlanması, vahid fövqəldövlət statusunun ləğvinə səbəb olacaq proseslərin qarşısının alınması;

İkincisi, "Qabaqlayıcı zərbə" konsepsiyası. Bu, ABŞ-ın "çəkindirmə" ("containment") siyasətindən "önləmə" ("preventive") strategiyasına keçid xəttini reallaşdırmanı nəzərdə tutur. Başqa sözlə desək, "sərhədlərinə gəlib çatanadək təhlükəni üzə çıxarıb məhv etmək, ABŞ-ı, Amerika vətəndaşlarını və onların maraqlarını daxildə və xaricdə müdafiə etmək" sözügedən doktrinanın mühüm müddəalarındandır. Təhlükə mənbəyini yerindəcə, real hədəyə çevrilənədək məhv etmək yeni strategiyanın əsas tələblərindəndir;

Üçüncüsü, ABŞ-ın xarici siyasətinin həyata keçirilməsi üçün çoxtərəfli əməkdaşlıq mümkün olmadığı təqdirdə təkbaşına hərəkət etməyin qaçılmazlığı sənəddə xüsusi olaraq vurğulanmışdır.Ümumiyyətlə, yeni doktrinada qlobal terror təşkilatlarının məhv edilməsi ABŞ hərbi strategiyasının əsas hədəflərindəndir. Bu hədəflərə çatmaq üçün isə ölkənin iqtisadi, siyasi və hərbi siyasəti birgə fəaliyyət göstərməlidir [9, 117].

Corc Buşun dövründə açıqlanan ikinci "Milli Təhlükəsizlik Strategiyası"nda ölkənin "müharibə vəziyyəti"ndə olması elan edilmişdir. Strategiyada terrorizm Amerika xalqını hədəf alan təhdid kimi qiymətləndirilmişdir [24].

İlk olaraq "azadlıq, ədalət və insan şərəfinin yüksəldilməsi, zorakılığa son vermək, demokratiyanı azad və ədalətli ticarət yolu ilə genişləndirməyə çalışmaq, zamanımızın çətinlikləri ilə üzləşmək, demokratiyanın yayılması istiqamətində ABŞ-ın rəhbərliyi ilə demokratik hökumətləri və onların fəaliyyətlərini fəal şəkildə dəstəkləmək" strategiyanın əsas hədəflərini meydana gətirir [38, 3].

2002-ci ildə dərc olunan Milli Təhlükəsizlik Strategiyasına görə, ABŞ-ın hərtərəfli milli strategiyası daxilində enerji təhlükəsizliyinin inkişaf etdirilməsi yer alır. Burada, Xəzər bölgəsi xüsusi olaraq vurğulanır. Xəzər regionu enerji təhlükəsizliyi baxımından Yaxın Şərq və Afrika ilə bərabər təhlil edilir. Xüsusilə buradan əldə edilən qlobal enerjinin növ və qaynaq baxımından çeşidləndirilməsinə toxunulur. Bu sənəddən aydın olur ki, enerji təhlükəsizliyi və Xəzər regionuna istiqamətli marağın ABŞ-ın Cənubi Qafqaz siyasətinin amilləri arasında dəyərləndirilməsi mümkündür.

Daha sonra, ABŞ-ın 2003-ci il tarixli Milli Təhlükəsizlik Strategiyası açıqlanmışdır. 2003-ci il tarixli Milli Təhlükəsizlik Strateji Sənədində Xəzərin enerji ehtiyatlarına da toxunulur. Sənəddə ABŞ-ın Xəzər mənbələrinə verdiyi strateji əhəmiyyətin artaraq davam etdiyinə dair fikirlər vardır.

Bunun ardından dərc olunan 2004-ci il tarixli ABŞ-ın Milli Hərbi Strateji Sənədi də Milli Təhlükəsizlik Strategiyasında bəhs edilən "qlobal təhlükəsizlik hədəfi" üzərində qurulub. Amerika silahlı qüvvələrinin hərəkətə keçə biləcəyi dörd təməl müdafiə məqsədindən birincisi ölkə sərhədləri daxilində təhlükəsizliyin təmin edilməsi olmaqla yanaşı, bu əsas məqsədlər arasında beynəlxalq nizamın təmin edilməsi üçün lazım olan təhlükəsizlik atmosferinin yaradılması da yer alır. Burada təhlükəsizliyin milli sərhədlərin xaricində mövqeləndirildiyini yenidən görmək mümkündür. Bununla bərabər, strateji məkanlara etibarlı giriş və qlobal miqyasda fəaliyyət qabiliyyəti də dörd təməl müdafiə məqsədi daxilindədir. Bu baxımdan, ABŞ-ın "Super Güc" mövqeyini qlobal səviyyədə qəbul etdirmə hədəfini bu maddələrdə görmək mümkündür.

Bundan başqa, 2005-ci il tarixli ABŞ Milli Müdafiə Strateji Sənədinə görə Rusiya "strateji" mövqedəki ölkələr kateqoriyasında göstərilir. Sənəddə

həmçinin, yenidən alovlanma ehtimalı olan böyük güclər arası rəqabət riskinə də yer verilir. Bu vəziyyətin Rusiya ilə ABŞ-ı yenidən qarşı-qarşıya gətirə biləcəyindən bəhs edilir. Rusiyanın regional və qlobal miqyasda siyasət, iqtisadiyyat və təhlükəsizlik məsələləri ilə bağlı qərarlarının ABŞ ilə əlaqələrinə təsir edəcəyinə toxunulur. Rusiyanın qlobal və regional məsələlərdə üzərinə götürəcəyi missiyasının dünyadakı strateji mövqeyini də dəyişdirə biləcəyinə diqqət çəkilir. Bu vəziyyətin ABŞ-ın təhlükəsizliyi baxımından qeyri-müəyyənlik yaratdığı və bunun fürsətlər yaratmaqla yanaşı risk ehtimalı daşıdığı da ifadə edilir.

Corc Buşun hakimiyyəti illərində qəbul olunan İkinci "Milli Təhlükəsizlik Strategiyası" terror başda olmaqla, epidemik xəstəliklər, kütləvi qırğın silahlarının yayılması, insan alveri və təbii fəlakət kimi transmilli təhdidləri əhatə edir. Nəticə olaraq, 2006-cı il strategiyası 2002-ci il "Milli Təhlükəsizlik Strategiyası"ndan fərqli olaraq tək tərəfli mübarizəni deyil, digər dövlətlərlə birgə mübarizəni daha üstün tutur. Bu strategiyanı "keçid strategiyası" da adlandırmaq olar.

"Soyuq müharibə" illərindən sonra ortaya çıxan Corc Buşun "Yeni dünya nizamı", Bill Klintonun "Qloballaşma" və oğul Corc Buşun "Terrorizmlə mübarizə" anlayışlarının yerini 2008-ci il seçkilərində qalib gələn Barak Obamanın "Yeni idealizm" siyasəti aldı. Barak Obama hakimiyyətə gəldikdən iki il sonra, yəni 2010-cu ilin may ayında ABŞ-ın növbəti "Milli Təhlükəsizlik Strategiyası" sənədi qəbul edildi. Strategiyada əsas təhlükəsizlik prinsipi qlobal hərbi üstünlüyün saxlanılması idi.

ABŞ prezidenti Barak Obamanın 2010-ci ildə imzaladığı ABŞ-ın təhlükəsizlik strategiyasının müqəddiməsində "ABŞ-ın dünya üzərindəki tarixi rolundan, dünyanı dəyişmə iddiasından, ABŞ maraqlarına bağlılığından və demokratiyanın əhəmiyyətindən" bəhs edilir. Sənəddə göstərilir ki, ABŞ-ın xarici siyasəti üç böyük istiqamətdə formalaşmışdır: kəşfiyyat orqanları, hərbi-tədqiqat mərkəzləri, Müdafiə Nazirliyi. ABŞ-da hərbi tədqiqat mərkəzlərinin hazırladığı sənədlərdə təhlükəsizliyə olan təhdidlər bu cür sıralanır: qlobal terror, Əfqanıstan, İraq, İran, Şimali Koreya, Pakistan, kütləvi qırğın silahları və güclənən Çin.

Təhdidlər arasında Çin, Tayvan, Vyetnam və Filippin arasında Spratli adaları uğrunda qarşıdurma riski və Çinin hərbi donanması önəmli yer tutur. ABŞ müdafiə tədqiqatçıları üç ayrı müharibə ssenarisinə görə ordularını hazırlayırlar. Bunlar:

- İran ssenarisi; "Küçə döyüşçüsü və dövlət" (The "Streetfighter" State);
- Çin ssenarisi; "Böyük güclərin üzləşməsi" ("Tayvan"a embarqo);
- Şimali Koreya; "Sərsəri" dövlət- "Nüvə kabusu" [31, 3].

Bu ssenarilərdə, xüsusilə dövlətlər arasındakı qarşıdurmalarda nüvə qarşıdurması ehtimalı və kütləvi qırğın silahlarından istifadə qaçılmaz görünür. ABŞ bu çərçivədə həm doktrinalarda, həm də müdafiə və hücum qabiliyyətlərini inkişaf etdirmək üçün ordusunda dəyişikliklər aparmalıdır. ABŞ son 50 ildə müzakirə edilmiş nüvə silahı müqavilələrinin çoxundan geri çəkilmişdir. Məsələn nüvə silahlarının test edilməsini və yenilərinin inkişafını məhdudlaşdıran "Anti-ballistik raket müqaviləsi"ndən də çıxmışdır [17]. ABŞ yeni "Üçlü Doktrinası" ilə nüvə silahlarını ləğv etmir, ancaq nüvə silahlarından asılılığı azaltmağı qarşısına məqsəd qoyur [63, 7]. ABŞ ərazisini, xaricdəki maraqlarını, qüvvələrini qorumaq məqsədiilə 2000-ci ildən bəri "raket qalxanı" yaradır. Bu sistem Şimali Koreya, İran və Çin kimi ölkələrdən gələcək raketləri təsbit və təqib edən müşahidə peyki və kosmik radarlardan təşkil olunmuşdur [31, 4].

2010-cu ildə qəbul edilən "Milli Təhlükəsizlik Strategiyası" ilə ABŞ-ın xarici siyasəti Buş dövründə formalaşan təktərəflilikdən çoxtərəfli ittifaqlara doğru istiqamətlənmişdir. Bu strategiyada, 2006-ci il tarixli strategiya ilə başladılan "tək tərəflilikdən çox tərəfliliyə keçid dövrü" başa çatmışdır [58, 5].

Prezident Barak Obama dövründə nəşr olunan Milli Təhlükəsizlik Strategiyasında gələcəkdə qlobal sistemin ortaya çıxaracağı saysız fərqli təhdidlər arasında ABŞ-ın özünün və müttəfiqlərinin təhlükəsizliyini təhdid altına alan səkkiz strateji riskə daha çox önəm veriləcəyi açıqlanır. Həmin təhdidləri prezident Obama bu cür sıralayır:

1. ABŞ torpaqlarına hücumlar;ABŞ və onun müttəfiqi olan ölkə vətəndaşlarına ABŞ torpaqları xaricində hücumlar;
2. Qlobal iqtisadi böhran və ya qlobal iqtisadi yavaşlama;

3. Kütləvi qırğın silahlarının yayılması və ya istifadə edilməsi;
4. Qlobal yoluxucu xəstəlik epidemiyası;
5. Qlobal istiləşmə;
6. Enerji bazarında ciddi geriləmə;
7. Dövlət nəzarətinin olmadığı və ya zəif olduğu ölkələr arasında baş verə biləcək qırğın, regional yayılma və mütəşəkkil cinayət təşkilatlarının olduğu təhlükəsizlik riskləri [44].

ABŞ-ın Milli Təhlükəsizlik Strategiyasında (2010) Silahlı Qüvvələrin əsas vəzifələri əksini tapmışdır.Silahlı Qüvvələrinin əsas vəzifələri ölkənin milli maraqlarını qorumaq və 2010-cu il Milli Təhlükəsizlik strategiyasının bu sahədəki hədəflərinə çatmaq üçün ortaq gücü yenidən formalaşdırmaqvə aşağıdakı vəzifələri uğurla həyata keçirməkdir:

1. Terrorla mübarizə və nizamsız hərb. “Digər milli güc vasitələri ilə birlikdə hərəkət edən ABŞ hərbi qüvvələri harada olursaolsun,“Əl-Qaidə” və tərəfdarlarını davamlı olaraq təzyiq altında saxlamağa davam etməlidir. “Əl-Qaidəni məğlub etmək və Əfqanıstanın yenidən sabit və yaşamaq üçün etibarlı ölkə olmasını təmin etmək əsas hədəflərdən biri olacaq. ABŞ qüvvələri Əfqanıstana gəldikdən sonra qlobal terrorizmlə mübarizə daha geniş şəkildə yayıldı. Ötən on il ərzində öyrəndiyimiz praktikanı əks etdirən terrorla mübarizəyə və nizamsız döyüşə uyğun qüvvələr formalaşdırmağa davam edəcəyik. Hizbullah kimi digər müəyyən edilmiş terror təşkilatlarının meydana gətirdiyi təhdidlər üçün də oyanıq qalacağıq”.

2. Təcavüzkarlığın qarşısının alınması. “ABŞ qüvvələri hər hansısa düşmən tərəfindən ola biləcək təcavüzkarlığınqarşısını almaq və məğlub etmək üçün səfərbər olacaq. Birdən çox regionda güclü maraqları olan dövlət olaraq qüvvələrimiz başqa regionlarda böyük diametrli əməliyyatlar həyata keçirdiyi halda belə, digər regionlarda da fürsəti əldən verməyən düşmənlərin təcavüzkarlığına qarşı da mübarizə aparmaq və onları öz hərəkətlərindən daşındırmaq məcburiyyətindədir. Planlarımıza quru, hava, dəniz, kosmos və kiber sahələrdə varlığımızı tamamilə inkar edən güclərə qarşı mübarizə daxildir”.

3. Kütləvi qırğın silahları. “ABŞ hərbi qüvvələri nüvə, bioloji və kimyəvi silahların çoxalmasının və istifadə edilməsinin qarşısını almaq üçün fəaliyyət göstərir. Bu fəaliyyətlər arasında əməkdaşlıq etdiyi “Təhdidin Azaldılması (Nunn-Lugar) Proqramı”nın həyata keçirilməsi, KQS yerlərinin müəyyən edilməsi, monitorinqi, izlənilməsi, qadağan edilməsi və təhlükəsizliyinin təmin edilməsi üçün planlaşdırma və əməliyyatlar mövcuddur. Bundan başqa, İranın nüvə silahına sahib olmasına maneə törətmək də bu fəaliyyətlər sırasına daxildir”.

4. Kiber məkanda fəaliyyət göstərmək. “Müasir silahlı qüvvələr etibarlı informasiya və kommunikasiya şəbəkəsi olmadan vacib əməliyyatlar həyata keçirə bilməz. Buna görə də yerli və xarici müttəfiqlərlə işləməyə, kiber sahədə və kosmosda fəaliyyət göstərə bilən inkişaf etmiş qabiliyyətlərə investisiya yatırmağa davam edəcəyik [57, 4-6].

Ənənəvi olaraq hər il Ağ Ev ölkənin təhlükəsizlik prioritetlərini təyin edən “Milli Təhlükəsizlik Strategiyası” (National Security Strategy) hazırlayır, Konqresə təqdim edir. Lakin 2010-cu ildə bu sənəd hazırlanarkənhələ “ərəb baharı” baş verməmiş, Rusiya Krımı ilhaq etməmişdi. Dünyada baş verən bu yeni geosiyasi reallıqlar ABŞ-ın yeni strategiya sənədiniformalaşdırmasına zəmin yaratmışdır. Növbəti, yəni 2015-ci ildə təqdim olunmuş 29 səhifəlik “Milli təhlükəsizlik strategiyası”nda ABŞ-ın 2015-ci il üçün prioritet xarici siyasət və təhlükəsizlik hədəfləri ifadə edilmiş və ölkənin təhlükəsizliyinə qarşı yönəlmiş təhdidlərə xüsusi diqqət yetirilmişdir.

Sənəd ABŞ prezidenti Barak Obama və Ağ Evin fikirlərini əks etdirən iki səhifəlik giriş mətni ilə başlayır. Mətndə 2008-ci il iqtisadi böhranından sonra11 milyon yeni iş yeri yaradıldığı və ölkənin keyfiyyətli təhsil sistemi sayəsində hər il milyonlarla yeni şagird və immiqrantın müraciət etməsinə gətirib çıxaran böyük bir üstünlüyü olduğu vurğulanmışdır. Bundan başqa, sənəddə Obama administrasiyasının xarici siyasətdə müharibələrin qarşısının alınması və hərbi güc tətbiq etməmək siyasəti öz əksini tapmışdır. İraq və Əfqanıstan kimi ölkələrdə xidmət göstərən ABŞ əsgərlərinin sayının bir neçə il ərzində 180.000-dən 15.000-ə qədər azaldıldığı da ifadə edilmişdir. Artan radikal-fundamentalist fəaliyyətlər və

beynəlxalq terrorizm, Rusuyanın təcavüzkarlığı, iqlim dəyişikliyi və kiber təhdidlər, ABŞ-ın ən əhəmiyyətli təhlükəsizlik problemləri kimi qiymətləndirilmişdir. Strategiyada gösərilir ki, ABŞ-ın xarici siyasəti Amerika vətəndaşlarının həyatını və onun milli maraqlarını qorumağa yönəlmişdir. Digərbir mövzu isə İraq və Suriyada insan hüquqlarına böyük təhlükə yaradan İŞİD və "Əl-Qaidə" terror təşkilatlarının yox edilməsi məsələsidir. Obama dövründə başladılan "Asiya oxu" siyasətinə davam ediləcəyi, Trans-Sakit okean ticarətinin və xüsusilə Hindistanla yaradılan iqtisadi əlaqələrin inkişaf etdiriləcəyi də vurğulanır [59, 2].

ABŞ-ın yeni təhlükəsizlik strategiyasının milli maraqlar əsasında inkişaf etdirildiyi və müttəfiq ölkələrlə olan əlaqələrin əhəmiyyətinə diqqət çəkilərək yeni yüksələn güclərlə əlaqələrin inkişaf etdirləcəyi ifadə olunur. ABŞ-ın öz xarici siyasətini həyata keçirərkən nəzərə aldığı hədəflər burada xüsusilə vurğulanmışdır. Həmin hədəflər aşağıdakılardır:

a) Universal dəyərlər və beynəlxalq hüquq çərçivəsində ABŞ-ın təhlükəsizliyi və inkişaf edən iqtisadiyyatına uyğun şəkildə "məqsədlərə söykənən liderlik etmək" hədəfi (lead with purpose);
b) ABŞ ordusunun da dəstəklədiyi sahibkarlıq və ABŞ iqtisadiyyatı vasitəsilə "güclü liderlik" modelini yaratmaq hədəfi (lead with strength);
c) Hüququn üstünlüyü, demokratiyanın qorunması və beynəlxalq sahədə mümkün qədər müdafiə olunması kimi meyarlara əsaslanan "nümunəvi liderlik etmək" hədəfi (lead by example);
d) Dünyada sülh və sabitlik kimi əhəmiyyətli dəyərləri təmin etmək sahəsində müttəfiqlərlə birgə hərəkət etməyi nəzərdə tutan "müttəfiqlərlə birgə liderlik etmək" hədəfi (lead with partners);
e) ABŞ-ın hərbi, iqtisadi, mədəni və digər bütün sahələrini özündə birləşdirən "bütün vasitələrlə liderlik etmək" hədəfi (lead with all the instruments of U.S. power);
f) Beynəlxalq müstəvidə gücün dəyişən, nisbi və dinamik fakt olmasının da təsiri ilə ortaya çıxan "uzun müddətli liderlik etmək" (lead with a long-term perspective) hədəfləri [36, 4].

Təhlükəsizlik adlı bölmədə ABŞ hökumətinin vətəndaşlarını qorumaq vəzifəsi qeyd edilmiş və bu məsuliyyətin yalnız ölkə daxilini deyil, xaricini də əhatə etdiyi qeyd edilmişdir. İŞİD və "Əl-Qaidə" terror təşkilatları təhdid kimi göstərilən hissədə ABŞ-ın NATO, Birləşmiş Krallıq, Fransa, Almaniya, İtaliya və Kanada ilə olan xüsusi əlaqələrinə diqqət çəkilmişdir. Eyni zamanda ABŞ ordusunun gələcəkdə say etibarı ilə daha az olacağı, ancaq dominant gücünü itirməyəcəyi ifadə olunmuşdur. Digər bir məqam isə ABŞ-ın bundan sonra gücdən istifadə etmək mövzusunda çox seçici davranacağı (burada Corc Buş dövrünə və İraq müharibəsinə yönələn tənqid vardır), yalnız ABŞ maraqları və vətəndaşlarının təhdid edildiyi halda hərbi gücdən istifadədə tərəddüd olunmayacağı vurğulanmışdır. Ancaq daha sonra göstərilən "Milli təhlükəsizliyi möhkəmləndirmək" (reinforce Homeland Security) hədəfi, Buş dövründən qalma "Homeland security" anlayışını yenidən gündəmə gətirmiş, lakin bu mövzuda yalnız terror təşkilatlarına deyil, təbii fəlakətlərə də diqqət çəkilmişdir. Təhlükəsizlik hissəsində kütləvi qırğın silahlarının yayılması, iqlim dəyişikliyi, kiber təhlükəsizlik, kosmos təhlükəsizliyi, hava və dəniz təhlükəsizliyi və dünyadakı sağlamlıq problemlərinə də xüsusi diqqət ayrılmışdır [59,7-8].

ABŞ-ın Müdafiə Nazirliyinin 2011 və 2015-ci illərdə qəbul etdiyi Hərbi Strategiyada beynəlxalq təhdid olan kütləvi qırğın silahlarının (KQS) yayılması, dünya əhalisinin sürətli artımı və ərzaq çatışmazlığı, yoluxucu xəstəliklərin artması, Afrikada, Yaxın Şərqdə ərzaq qıtlığından əziyyət çəkən əhali və onların acınacaqlı yaşamı öz əksini tapmışdır. Bundan başqa, KQS-nın İŞİD kimi beynəlxalq terror təşkilatlarının əlinə keçməsinin və istifadəsinin təhlükəsi də vurğulanmışdır. Sənəddə bildirilir ki, KQS-nın mövcud texnologiyaları ilə ekstremist ideologiyaya məxsus insanlar birləşərək beynəlxalq təhlükəsizlik üçün güclü təhdid meydana gətirir [59, 10].

Barak Obamanın prezidentliyinin birinci dövründə, yəni 2012-ci ilin yanvar ayında qəbul olunmuş Müdafiə Strategiyasında Asya-Sakit Okean regionunda əməkdaşlığının inkişafı, Çinin ABŞ iqtisadiyyatını və təhlükəsizliyini təsir altına alacağı, Çinin hərbi gücü ilə bağlı niyyətini açıq şəkildə ifadə etməsinin vacibliyi,

Bəsrə Körfəsi ölkələrinin təhlükəsizliyi, ABŞ və müttəfiqlərinin bölgədə əsgər saxlamasına mühüm əhəmiyyət veriləcəyi, İsrailin təhlükəsizliyi və Yaxın Şərqdə dəstəklənəcəyi, Rusiya ilə əlaqələrin inkişafı, Afrika və Latın Amerikası da daxil olmaqladünyanın əksər ölkələri ilə təhlükəsizlik sahəsində əməkdaşlığın genişlənəcəyi vurğulanır.

Yuxarıda qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, ABŞ-ın hərbi fəaliyyəti federal qanunvericiliklə tənzimlənir. Eyni zamanda ABŞ-ın təhlükəsizliyinə qarşı olan təhdidlər də onun yeni milli təhlükəsizlik, hərbi və müdafiə strategiyalarının yaranmasına səbəb olur. Belə ki, XXI əsrin əvvəllərində baş verən 11 sentyabr terror hücumları ABŞ-ın siyasi, iqtisadi, hərbi, təhlükəsizlik sistemində köklüdəyişikliklərin baş verməsinə zəmin yaratdı.

## 1.2. Müasir dövrdə ABŞ-ın hərbi strategiyasının formalaşmasına təsir göstərən amillər

Hər bir ölkənin təhlükəsizlik sistemi onun daxili və xarici təhlükəsizliyinin təmin olunmasında məsul olan orqanların fəaliyyətindən asılıdır. Bu orqanların fəaliyyəti daxili təhlükəsizlikdən xarici təhlükəsizliyə, kəşfiyyatdan hüquqa, iqtisadiyyatdan beynəlxalq əlaqələrə qədər geniş sferanı əhatə edir.

Dövlət öz təhlükəsizliyini təmin etməkvə xaricdən müdaxilənin qarşısını almaq üçün strateji xətt yürüdür [34, 5].

XXI əsrin əvvəllərində beynəlxalq təhlükəsizlik üçün yeni təhdidlər yaranmışdır. Qüdrətli dövlətlər arasında rəqabətdən doğan “köhnə təhlükə”lər arxa planda qalmışdır. Hətta nüvə silahları ilə aparılacaq müharibədən yaranan təhlükələr “köhnə” sayılır. “Yeni təhlükə”lərə isə beynəlxalq terrorizm, kütləvi qırğın silahlarının yayılması, daxili hərbi münaqişələr, beynəlxalq hərbi müdaxilələr, ekoloji tarazlığın pozulması və s. daxildir.

“Terror” latın sözü olub, qorxu, dəhşət və vahimə deməkdir. Bu anlayışa əsasən, terrorizm ictimai quruluşu və siyasi rejimi zorla dəyişmək üçün qeyri-qanuni hərəkətlərin vəhdətidir. Digər bir anlayışa görə isə terrorizm öncədən müəyyənləşdirilmiş məqsədlərinə çatmaq üçün mütəşəkkil bir qrup və partiyanın ardıcıl surətdə zorakılıqdan istifadə etməsidir. Beləliklə, ümumiləşdirilmiş şəkildə demək olar ki, terrorizm ictimai quruluşu və ya mövcud iqtidarı yıxmaq və başqa siyasi məqsədlər üçün bir qrupun qorxutma, öldürmə, digər müxtəlif qeyri-qanuni vasitələrdən istifadəsinə deyilir [13, 1- 5].

Hələ 1999-cu ildə BMT Baş Assambleyasında qəbul edilmiş “Terrorizmlə mübarizə haqqında” Qanunun 1-ci maddəsində qeyd olunur ki, terrorizm dedikdə, ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq və ya dövlət hakimiyyəti orqanları tərəfindən terrorçuların maraqlarına cavab verən qərarların qəbul edilməsinə nail olmaq məqsədilə insanların kütləvi şəkildə qırılmasına, onlara bədən xəsarəti yetirilməsinə, yaxud səhhətinə başqa cür zərər vurulmasına, habelə, başqa ağır nəticələrə səbəb olan əməllərin törədilməsi və ya bu cür əməllərin törədilməsinə yönələn hədə başa düşülür [2].

2001-ci il 11 sentyabrda ABŞ-da törədilmiş terror faciəsi XXI əsrdə beynəlxalq terrorizmin sərhəd tanımayacağı fikrini dəqiqləşdirdi. Bir çox ekspertlər tərəfindən irəli sürülən “terrorizm XXI əsrdə daha təhlükəli formada özünü büruzə verəcək” tezisinin reallaşdığını göstərdi [1, 3-4].

Bu terror hadisəsindən sonra terrorrizm beynəlxalq xarakter daşımağa başladı. Artıq dövlətlər terrorla təkbaşına deyil əməkdaşlıq edərək mübarizə aparmalı olduqlarını anladılar. Çünki ABŞ kimi fövqəl gücə sahib bir dövlət terror aktının qurbanı ola bilirsə deməli heç bir dövlət gələcəkdə baş verə biləcək terror hadisələrindən sığortalanmayıb.

“Beynəlxalq terrorizm” mürəkkəb anlayış olmaqla yanaşı, həm də çoxaspektli sosial-siyasi hadisədir. Belə ki, terror aktı aşağıdakı hallarda beynəlxalq terror kimi qiymətləndirilə bilər:

1) dövlətlərarası münasibətlərə, beynəlxalq hüquq normalarına, beynəlxalq nizama və təhlükəsizliyə, dövlətin beynəlxalq maraqlarına təhlükə yaratdıqda;

2) şəxs, aid olduğu dövlətin ərazisində digər bir dövlətin vətəndaşına qarşı terror aktı törətdikdə;

3) terrorçu və zərərçəkən eyni və ya müxtəlif dövlətlərin vətəndaşları olduqları halda, cinayət üçüncü bir dövlətin ərazisində baş verdikdə;

4) terror aktı beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya digər beynəlxalq obyektlərə qarşı yönəldikdə;

5) hər hansı bir dövlətin dəstəyi ilə digər dövlətin ərazisində terror aktı həyata keçirildikdə [1, 4].

11 sentyabr hadisələri ABŞ-ın xarici siyasətində böyük dəyişikliyə səbəb oldu. Məhz bu hadisələrdən sonra rəsmi Vaşinqton beynəlxalq terrorizmə qarşı mübarizəni öz xarici siyasət kursunun əsas prioritet istiqaməti elan etdi. Bundan əlavə, Vaşinqtonun təhriki ilə NATO-nun Əfqanıstanda antiterror əməliyyatına başlamasında 11 sentyabr hadisələri stimul rolunu oynadı.

2001-ci il sentyabrın 11-i səhər terrorçuların qaçırdığı iki sərnişin təyyarəsi Nyu-Yorkdakı Dünya Ticarət Mərkəzinin (DTM) "əkiz" qüllələrinə çırpılaraq binaları yerlə-yeksan etdi [4]. Daha bir təyyarə isə Vaşinqtonda ABŞ Müdafiə Nazirliyinin (Pentaqonun) binasına çırpıldı. Terrorçuların qaçırdığı digər bir təyyarə də Pensilvaniya ştatında yerə düşərək partladı. Nyu-York vaxtı ilə 8.46-da (Bakı vaxtı ilə 17.46) "Amerikan Eyrlaynz" aviaşirkətinin Bostondan Los-Ancelesə uçan (11-ci reys) "Boinq" sərnişin təyyarəsi DTM-nin "şimal" qülləsinə, 17 dəqiqə sonra isə "Yunayted Eyrlaynz" şirkətinə məxsus daha bir "Boinq" (175-ci reys, Boston - Los-Anceles) 115 mərtəbəli göydələnin ikinci "cənub" qülləsinə çırpılaraq partladı. Hadisənin şokunun təsiri ilə ABŞ Federal Aviasiya İdarəsi Nyu-York ətrafında uçuşlara qadağa qoyduqdan bir neçə dəqiqə sonra, saat 9.55-də isə "Amerikan Eyrlaynz"ın Vaşinqtondan Los-Ancelesə uçan sərnişin təyyarəsi (77-ci reys) ABŞ Müdafiə Nazirliyinin (Pentaqonun) beşguşəli binasına çırpıldı. Nəhayət, saat 10:25-də "Yunayted Eyrlaynz"ın Nyu-Yorkdan San-Fransiskoya uçan (93-cü reys) daha bir sərnişin təyyarəsi Pitsburq şəhərindən 130 kilometr uzaqlıqda, Sommerset bölgəsində yerə dəyib partladı. Təyyarələrin partlaması nəticəsində yaranan güclü istilik effekti Nyu-Yorkdakı "əkiz" qüllələrin möhkəm konstruksiyasını o dərəcədə

zəiflətmişdi ki, dünyanın ən möhtəşəm tikilisi bir neçə dəqiqənin içində nəhəng polad-beton "dağı"na çevrilmişdi. DTM-nin binasında yanğın bir neçə gün fasiləsiz davam etdi.Ticarət mərkəzinin dağıntılarının təmizləmə prosesi isə düz 9 ay sürdü. Sonralar aparılmış statistikaya görə, təkcə DTM-nin dağıntıları altında 2792 nəfər, onun "əkiz" qüllələrinə çırpılmış iki təyyarədə 157 nəfər, Pentaqonun binasına dəyən təyyarədə və binanın özündə 184 nəfər, Pensilvaniya ştatında yerə düşmüş təyyarədə isə 129 nəfər həlak olub. Bundan əlavə, 380 nəfər itkin düşmüş hesab olunur [11].

2001-ci il 11 sentyabr terror aktında 4000 nəfər ölmüş, Ümumdünya Ticarət Mərkəzinin partladılması nəticəsində Nyu-York şəhər iqtisadiyyatına 95 milyard dollar ziyan dəymiş, 83 min insan iş yerini itirmişdir. Bu akt tarixdə miqyasına görə ən böyük terror aktıdır [2, 4].

Federal Tətqiqat Bürosu (FTB) 3 gün ərzində terrorçuların siyahısını tərtib etdi. Üsamə bin Laden bu əməliyyatı Əfqanıstanda bir mağarada planlamışdı. Talibana qarşı tezliklə cavab reaksiyası verildi. Belə ki, Federal Təhqiqat Bürosu Amerika tarixində ilk dəfə olaraq "PENTTBOM" əməliyyatı adlanan böyük araşdırmaya başladı. Şübhəlilər 72 saat ərzində müəyyənləşdirildi, çünki onların bir neçəsi uçuş biletlərində və kredit kartı qeydlərində adlarını dəyişdirməyə cəhd etmişdilər. Onlar təyyarədə Amerika vətəndaşı olmayan sərnişinlər arasında demək olar ki, yeganə ərəb sərnişinlər idilər. Bu fakt FTB-na doğum tarixi, viza statusu, yaşayış yeri kimi məlumatlardan istifadə edərək şübhəli sərnişinlərin kimliyini müəyyənləşdirməyə imkan verdi. 2001-ci il sentyabrın 27-də FTB 19 terrorçunun milliyyətini, uydurma adları haqqında məlumatları və onların şəkillərini yayımladı. Şübhəli şəxslər Səudiyyə Ərəbistan, Birləşmiş Ərəb Əmirlikləri, Liviya və Misirdən idilər.

11 sentyabr hücumları amerika xalqına çox ağır təsir göstərdi. Bu hücumlar Amerika və dünya bazarına da təsirsiz ötüşmədi. Nyu York məzənnə fondu (NYMF) və Amerika məzənnə fondu hadisə baş verən gün açılmadı və senytabrın 17-dək qapalı qaldı. Məzənnə fondu yenidən açılanda səhm bazarı 71%-dən 8921-ə endi, bu isə bir gündə qeydə alınan ən böyük enmə idi.

Məhz bu hadisələrdən sonra yaxın şərqlilərə və onlara bənzəyən digər insanlara qarşı çoxlu sayda hücum və nifrət zəminində törədilmiş cinayətlər də qeydə alındı. Məsələn, Hind məbədinin partladılması, insanlara edilən hücumlar, təhqirlər, məscid və başqa dini binalara edilən hücumlar və sentyabrın 15-də Balbir Sinq Sodhinin qətlə yetirilməsi kimi faktlar amerikalıların qəzəbinin göstəricisi idi.

Hücumdan sonra Corc Buş administarsiyası Üsamə Bin Laden və Əl-Qaidə təşkilatının ədalətə təslim olunması və digər terror şəbəkələrinin yaranmasının qarşısını alınması üçün terrorizmlə mübarizə siyasətini elan etdi. Bu mübarizə terror aktı törədən dövlətlərə qarşı iqtisadi və hərbi sanksiyalar tətbiq etmək, qlobal ciddi nəzarət və kəşfiyyatı artırmaq məqsədlərini hədəfləyirdi. Bu hadisələr ABŞ-ın beynəlxalq terrorizmlə mübarizəyə başlaması, əvvəlcə Əfqanıstan və daha sonra İraqa qarşı hərbi müdaxilələr etməsi və dünyada intensiv anti-islam təbliğatının aparılması üçün bəhanə oldu.

2001-ci il sentyabrın 20-də prezident C. Buş ABŞ Konqresinin birgə sessiyasında 11 sentyabr günü baş verən hadisələr, 9 günlük xilasetmə, bərpa cəhdləri və 11 sentyabr terroruna qarşı cavab tədbirləri haqqında danışdı. Zərər çəkənlərin ailələrini və həyatda qalanları maliyyə yardımı ilə təmin etmək məqsədi ilə hücumların qurbanlarına yardım etmək üçün böyük miqdarda vəsait ayrıldı, xeyriyyə cəmiyyətləri yaradıldı.

Bu terror aktının dünyanın gedişinə necə təsir edəcəyini elə o dövrün ABŞ mətbuatının yazdıqlarına, ABŞ rəsmilərinin çıxışlarına baxdığımız zaman görmək mümkündür. Çox maraqlıdır ki, bu dövrdə hər kəs baş vermiş hadisələri Pearl Harbora olan hücumla müqayisə edirdilər.

ABŞ-ın Strateji Tədqiqatlar İnstitunun nüfüzlu analitiki Leonard Vonq hadisələri təsvir edərkən aşağıdakıları qeyd edir: “Hərbi əməlliyatlara verilən indiki ictimai dəstəyi Pearl Harbordan sonrakı dəstəklə müqayisə etmək olar. Amerikalılarhərbi əmaliyyatların vacib olduğunu dərk edir. Onlar uzun müddətli müharibəyə və onun gətirdiyi bütün fəsadlara dözməyə razıdırlar”.

11 sentyabr hadisələrindən danışarkən XX əsrin ən nüfüzlu ABŞ siyasətçilərindən olan Henry Kissincer qeyd edirdi: “Pearl Harborda-bizə olan

hücümdan sonra olduğu kimi indidə hökümətə sistematik cavab tədbirləri missiyası həvəla edilməlidir".

Leonard Vonq və Henri Kessincerin bu yanaşmaları gələcəkdə atılacaq addımlara zəmin hazırlamışdır.

Hələ 2000-ci ilin sentyabrında ABŞ hökümətі "Amerika müdafiəsinin yenidən qurulması" adlı hesabat hazırladı. Hesabatın müəllifləri arasında Dik Çeyni, Donald Ramsfeld, prezidentin qardaşı və eyni zamanda qarşıdan gələn seçkilərdə ABŞ prezidenliyinə namizəd Ceb Buş var idi. Hesabatda göstərilirdi ki, "Əgər Pearl Harbor kimi fəlakətli və sürətləndirici bir hadisə baş verməsə dünyanın yenidənqurulması prosesi çox uzun çəkə bilər. Yəni bu adamlara yeni Pearl Harbor hadisəsi lazım idi". Eyni zamanda terror aktlarının üzərindən bir il keçmiş Buş administarsiyasının yaydığı "ABŞ-ın milli təhlükəsizlik strategiyası" adlı sənəddə belə bir cümlə var: "11 sentyabr hadisələri bizim qarşımızda çox böyük imkanlar açdı". Həqiqətən də geniş imkanlar açıldı. Hadisənin baş verməsindənbir müddət sonra ABŞ-da "Vətənpərvərlik aktı" qəbul olunur və bu akt bütün ABŞ vətəndaşları üzərində total nəzarət yaratmağa imkan verir.

Bin Ladin əslində çox nüfuzlu bir ailənin, çox məşhur bir nəslin nümayəndəsi idi. Ənənəvi olaraq Bin Ladinlər ailəsi Amerikada çox böyük tikinti layihələri ilə məşğul olmuşdur. 1979 – cu ildə SSRİ Əfqanıstana hücum edən zaman Bin Ladin Əfqanıstana MKİ – nin silah, pul yardımlarının paylanılması üzrə kurator kimi işləmişdir. SSRİ dağıldıqdan və Əfqanıstandan öz qoşunlarını çəkdikdən sonra orda olan hərbçilər iki hissəyə bölünmüşdülər. Bin Ladin isə radikal və konservativ bir lider olan Həsən əl Turabinin tərəfində idi.

Maraqlı məqamlardan biri də Bin Laden ailəsinin Səudiyyə və Buş ailəsi ilə yaxın münasibətlərinin olmasıdır. Bin Laden ailəsinin ABŞ-dakı sərmayələri ilə 1987-ci ildə yaradılmış Carlyle Group şirkəti məşğul olur. Bu şirkət Amerikanın hərbi sənaye sektorunda mühüm yerə malikdir və onun idarə heyətində Mərkəzi Kəşfiyyat İdarəsinin keçmiş rəhbəri Frenk Karluççi, İngiltərənin keçmiş baş naziri Con Meycor və keçmiş prezident Corc Buşda təmsil olunmaqdadır. İraqın işğalından sonra ən böyük lahiyələrdə Carlyle Group iştirak etmişdir.

C. Buşun hələ prezident olmadığı dövrdə Ben Laden ailəsinin də yaxından iştirakı ilə "Harken Energy Corporation" şirkətini yaratdığını və Ben Ladenin qardaşından küllü miqdarda borc pul aldığı ortaya çıxan həqiqətlər arasındadır. Çox qəribədir ki, Corc Buş borcu qaytara bilmədikdə borclu olduğu Ben Ladenin qardaşı təyyarə ilə Amerika səmasında olduğu vaxt qəzaya uğrayır. Bu hadisə isə Buşun atasının prezidentlik dövrünə təsadüf edir.

ABŞ-ın 11 sentyabr terror hücumlarına verdiyi reaksiyanı 3 dövrə bölmək olar. Birinci dövr 2001- 2006-cı illəri əhatə edirvə terror hücumlarından dərhal sonra "terrora qarşı müharibə" konsepsiyasını əks etdirən "ya bizimləsiniz, ya da bizə qarşısınız" - terrorla mübarizə siyasəti həyata keçirərək "tək get - go alone" tətbiqlərini ehtiva edir. İkinci dövr İraqın işğalı zamanı ABŞ-ın həm terrorla mübarizə, həm də beynəlxalq təhlükəsizliyi maraqlandıran digər məsələlərlə bağlı daha çox dünya dövlətləri ilə əməkdaşlıqetməyə çalışdığı dövrdür. ABŞ-ın "dünyanın problemlərini tək başına ABŞ həll edə bilməz, bu problemləri birlikdə çalışaraq həll etməliyik" anlayışını tətbiq etməyə çalışdığı dövr isə üçüncü perioddur [14].

Eyni zamanda, 11 sentyabr hücumları ABŞ-da üç böyük struktur və hüquqi islahatların həyata keçirilməsinə zəmin yaratdı. Bu islahatlara-Vətənpərvərlik Qanununun qüvvəyə minməsi, Daxili Təhlükəsizlik Nazirliyinin qurulması (Department of Homeland Security) və 2004-cu il Kəşfiyyat İslahatı və Terrorizmin qarşısının alınması qanununu daxildir.

15 maddədən ibarət olan və qanuni tənzimləməni kökündən dəyişdirən Vətənpərvərlik Aktı (Terrorun qarşısını almaq Üçün Lazımlı Şərtlər Qanunu) 2001-ci ildə təsdiqlənərək qüvvəyə minmişdir [56].

Daxili Təhlükəsizlik Nazirliyi (Department of Homeland Security) 2002-ci ildə qanunla yaradılmasına baxmayaraq uzun sürən müzakirələrdən sonra 2003-ci ildə aktiv fəaliyyətəbaşlamışdır. İyirmi iki orqandan ibarət olan bu nazirlik 180.000-ə yaxın heyəti ilə birlikdə ABŞ-da olan ən böyük federal təşkilatlardan biridir. Bu təşkilatın Daxili Təhlükəsizlik Nazirliyi Strateji Planına əsasən üç əsas missiyası vardır:

1. ABŞ sərhədləri daxilində bir daha terror hücumunun baş verməməsi üçün çalışmaq və bu ölkədə yaşayan insanlar üçün daha etibarlı mühit yaratmaq;
2. Ölkəni terror hücumlarından maksimum dərəcədə müdafiə etmək;
3. Terror hücumları nəticəsində yarana biləcək zərərləri azaltmaq və digər təşkilatlara strateji dəstək vermək [53].

Kəşfiyyat və Məlumat Bürosu. 2001-ci il 11 sentyabr hücumlarının ABŞ-ın kəşfiyyat strukturunun formalaşmasında ciddi təsirləri olmuşdur. Bunun əsas səbəbi, 11 sentyabr terror hücumlarının mövcud kəşfiyyatın zəif olması nəticəsində həyata keçirilə bilməsidir. Buna görə də bənzər hadisələrin bir daha baş verməməsi üçün bu strukturlarda ciddi islahatların həyata keçirilməsinin vacib olduğu görünür [60]. Bunu təmin etmək məqsədilə 2005-ci ildə Milli Kəşfiyyat Direktorluğu (Director of National Intelligence) qurulmuşdur [52]. Bu təşkilat, ABŞ-da kəşfiyyat qurumlarının ən üst səviyyəli qurumu kimi Milli Kəşfiyyat Proqramının qaydalarına əsasən öz vəzifələrini icra edir.

11 sentyabr terror hücumlarından iki ay sonra “xalqa səsləniş” çıxışında Corc Buş “Terrora qarşı qlobal müharibə”nin Amerika xalqının tarix boyunca qarşılaşdığı heç bir təhdidə bənzəmədiyini söyləmişdir. Digər bir çıxışında isə Corc Buş mövzunu bir addım daha irəliyə apararaq “ABŞ-ın yalnız öz milli təhlükəsizliyini deyil, eyni zamanda mədəniyyətin təhlükəsizliyini təsis etməyə çalışdığını” vurğulayırdı. “Bu müharibə, dünya müharibəsi,mədəniyyətlərin müharibəsidir” [29] deyirdiş “Düşmənlərimiz bir çox resurslara malikdir və inanılmaz dərəcədə mərhəmətsizdirlər. Onlar, gizlənir, qurğu qurur və azadlığı hədəf alırlar. Bizim bu qədər sərbəst və azad ölkə olduğumuzu bilmək onları çox narahat edir. Ölkəmizdə hər dinə sərbəstlik verilir, qadınlar azaddırlar və uşaqların təhsil hüququ var. Bu onlara çox ağır gəlir. Amma biz belə etməyə davam edəcəyik, çünki Amerika bunlarsız Amerika ola bilməz” [34, 5-6].

Bundan əlavə, ABŞ Müdafiə Nazirliyi 11 sentyabr hadisələrindən sonra, müxtəlif təhdidlərlə eyni zamanda mübarizə aparılmasının vacib olduğunu ifadə edərək, ən əsas üç təhdidi bu cür sıralayır: 1) terrorizm, 2) kütləvi qırğın silahları, 3) uzun mənzilli raketlər. Müasir dövrdə terrora qarşı mübarizənin dünyanın

gündəmində olmasına baxmayaraq, digər təhdidlərin də nəzərdən kənarda qalmamasının vacib olduğu vurğulanmışdır. Rəsmi Pentaqon ABŞ-ın həm özünü, həm də müttəfiqlərini raket təhdidindən qorumaq üçün Raketdən Müdafiə sistemini inkişaf etdirməyə davam edəcəyini ifadə etmiş və uzun mənzilli raketlərin mövcudluğunun ABŞ üçün təhdid olduğunu bildirmişdir [34, 8].

ABŞ-ın terorizmlə mübarizə siyasəti Əfqanıstanın işğalı ilə başlamış və bu işğal prosesi İraq ilə davam etmişdir. ABŞ Taliban rejimindən müqəssirləri təhvil verməsini və terrorçuları himayə etməməsini tələb edirdi. Nəzərdə tutulan müddət ərzində Taliban rejimi lazımi tədbirləri görmədiyi üçün ABŞ və müttəfiqləri silahlı qüvvələrdən istifadə edərək Əfqanıstana müdaxilə etdi [13, 2].

Əfqanıstana azadlıq gətirmək adı altında (Operation enduring Freedom) aparılan ilk əməliyyatlar 2001-ci il11 sentyabr hücumlarından dörd həftə sonra 7 oktyabr 2001-ci il tarixində Amerikan və İngilis hava qüvvələrinin Əfqanıstanı bombalamaları ilə başlamışdır. Avstraliya da bu əməliyyatlara dəstək vermişdir. ABŞ-ın liderliyi ilə başlayan bu əməliyyatlardan beş həftə sonra 14 dekabr 2001-ci il tarixində Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası təcili iclasçağırmışdır. Dərhal sonra BMT Təhlükəsizlik Şurasının 20 dekabr 2001-ci il tarixli və 1386 saylı qərarı ilə Əfqanıstanda təhlükəsizliyin təmin edilməsi və yenidən qurulması (siyasi, iqtisadi və fiziki cəhətdən) məqsədiylə könüllü olaraq ölkələrin (coalition willing) iştirakı ilə ISAF (International Security Assistance Force) qüvvələrininyaradılmasına qərar verilmişdir [61]. İlk yarandıqda bu qüvvələrə İngiltərə 6 ay rəhbərlik etmişdir. BMT Təhlükəsizlik Şurasının 23 May 2002-ci il tarixli və 1413 saylı qərarı ilə ISAF-ın səlahiyyət müddəti uzadılmış və rəhbərlik İngiltərədən Türkiyəyə keçmişdir [62]. Əfqanıstanda olan ISAF qüvvələrinin rəhbərliyi və idarəsi 2003-cü il 11 avqust tarixindən etibarən NATO-ya verilmişdir. NATO bu vəzifəni öz üzərinə götürəndən sonra ISAF-a dəstək verən ölkələrin sayı gün keçdikcə artaraq 43-ə çatmışdır.Hələ də ISAF-a NATO üzvü olan 28 ölkə və NATO üzvü olmayan 15 ölkə dəstək verir [46]. Azərbaycan Respublikası da İSAF-a dəstək verən və aktiv fəaliyyət göstərən ölkələrdən biridir.Yaradılarkən əsgər sayı 5000 olan ISAF-ın əsgərlərinin sayı 130.000-ə çatmışdır. NATO-nun

Əfqanıstandakı rolu və vəzifəsi ölkə daxilində təhlükəsizlik və asayişin təmin edilməsində Əfqan hökumətinə kömək etmək və ölkənin yenidən əvvəlki vəziyyətinə qaytarmaq üçün lazımı dəstəyi verməkdir [50].

Hərbi nöqteyi-nəzərdən bu prosesi 4 mərhələdə izləmək mümkündür. Birinci mərhələ 2001-ci il 7-15 oktyabr dövrünü əhatə edir. Hərbi aksiyaların başladığı ilk gecə ərzində Əfqanıstana 110 qanadlı raket zərbəsi endirildi. Bu mərhələdə taliban rejiminin əsas infrastruktur obyektləri sıradan çıxarıldı.

İkinci mərhələ oktyabrın 15-dən noyabrın 2-dək davam etmişdir. Bütün Əfqanıstan ərazisində taliblərin hərəkətdə olan obyektlərinin aşkar edilməsi və onların məhv edilməsi, habelə yerüstü əməliyyatlara başlamaq üçün müvafiq şəraitin təmin edilməsi bu mərhələnin əsas məzmununu təşkil edir. Əfqanıstana ABŞ qoşunlarının ilk dəstələri 2001-ci ilin oktyabrın 21-də gətirildi. “Taliban” iki cəbhədə - həm şimal Alyansına, həm də ABŞ-a və onun müttəfiqlərinə qarşı müharibə aparmalı oldu.

Noyabrın 2-dən 15-dək davam edən üçüncü mərhələdə koalisiyanın quru qoşunlarının hücumu həyata keçirilmişdir. ABŞ-ın digər müttəfiqləri quruda aparılan hərbi əməliyyatlara qoşuldu. Artıq noyabrın 2-də ABŞ-ın hava zərbələri taktikasında dəyişiklik edildi. Belə ki, hava zərbələrinin hədəfi qismində koalisiya qüvvələrinin müttəfiqi olan Şimal Alyansının ordusu ilə, qanlı döyüşlər aparan taliban yaraqlıları seçilmişdi. Noyabrın 7-də mücahid dəstələri Kabula daxil oldu. Taliban qüvvələri Cənubi Əfqanıstanın dağlıq rayonlarına çəkildi və partizan müharibəsinə başladı. Noyabrın 8-də Dustum və Fəhimin başladığı hücumlar nəticəsində Məzari-Şərif, Qunduz, Baqlan və Salanq aşırımı ələ keçirildi. Ən başlıcası isə noyabrın 12-də Kabili taliblər təslim etməli oldular. Eyni vaxtda ölkənin cənubunda puştun müxalifəti taliblərinin müdafiə şəhəri olan Kandaqarı ələ keçirdilər. Nəticədə taliblərin mərkəzləşmiş idarəçilik sistemi pozuldu.

Nəhayət, dördüncü mərhələ noyabrın 15-dən başlanmışdır. Bu mərhələdə ABŞ və Böyük Britaniya qüvvələri tərəfindən taliblərin ayrı-ayrı qruplaşmalarına qarşı hərbi əməliyyatar (Tora-Bora dağında, “Anakonda” və s.) aparılmışdır. Bu mərhələnin əsas xüsusiyyəti konfliktin həllinin siyasi yollarının axtarışı ilə bağlı

olmuşdur. Həmid Kərzayinin rəhbərliyi altında müvəqqəti administrasiya formalaşdırılmışdır. Beləliklə, Əfqanıstanda hakimiyyət H. Kərzayi başda olmaqla amerikapərəst müvəqqəti hökumətə keçdi. Sonuncu mərhələ hal-hazırda da davam etməkdədir. 2002-ci ilin martında ABŞ silahlı qüvvələrinin keçirdiyi irimiqyaslı "Anakonda əməliyyatı" zamanı 12 gün ərzində 1000-ə yaxın Taliban döyüşçüsü həlak oldu. Lakin Əfqanıstanda sabitlik yaranmadı və Usama ben Ladeni tutmaq mümkün olmadı. Bütünlükdə Taliban rejiminin dövlət aparatı ləğv edilsə və "Əl-Qaidə" terror təşkilatı zəiflədilsə də, onun mövcudluğuna son qoyulmadı. ABŞ və onun antiterror koalisiyası üzrə müttəfiqləri hərbi əməliyyatları davam etdirdi. ABŞ əhalisi Əfqanıstanda aparılan antiterror əməliyyatlarını dəstəkləyirdi. Bu əməliyyatların sonu isə görünmürdü. ABŞ-ın Əfqanıstanda qazandığı qələbə natamam xarakter daşıyırdı. Taliban rejimi devrildikdən sonra ABŞ qarşısında duran növbəti mühüm məsələ yoxsul, zəif inkişaf etmiş müsəlman ölkəsində demokratik, modern dövlət quruculuğu prosesini həyata keçirmək idi.

Beləliklə, Taliban rejimindən sonra BMT və ABŞ-ın rəhbərliyi altında 2001-ci ilin sonlarından başlayaraq Qərb modeli üzrə yenidənqurma prosesinə başlanıldı. Bu istiqamətdə ən mühüm addım kimi BMT-nin himayəsi altında 2001-ci ilin dekabr ayında Almaniya Federativ Respublikasının Bonn şəhərində Əfqanıstanın müxtəlif etnik və hərbi qruplarına məxsus 18 lideri arasında (Şimal Alyansı, Peşəvər qrupu, Roma qrupu, Məhəmməd Zahir şahın tərəfdarları və s.) kompromis saziş imzalanması oldu. Bonn sazişinə əsasən, Əfqanıstanın dinc həyata qayıdışında başlıca rol BMT-ə aid edildi. Ölkənin müvəqqəti administrasiyasının təşkili, yeni konstitusiyanın qəbulu və hakimiyyətin nümayəndəli orqanlarına seçkilərin keçirilməsi əsas vəzifələr olaraq irəli sürüldü [8, 84].

11 Sentyabr hücumlarından sonra ABŞ-ın ikinci hərbi fəaliyyəti İraqa müdaxilə etməsi oldu. ABŞ hökuməti israrla İraqdakı Səddam rejimini kütləvi qırğın silahlarını inkişaf etdirməklə ittiham etmiş və bunun müttəfiq ölkələrin təhlükəsizliyi üçün təhdid olduğunu bəyan etmişdir. Buna görə dəİraqa müdaxilə edilməsini vacibsaymışdır. İraq hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının vasitəsilə həyata keçirilən diplomatik əlaqələrin davam etməsinə baxmayaraq ABŞ

hökuməti İraq ilə aparılan müzakirələrdə "diplomatiya müvəffəqiyyətsizliyə uğramışdır" [39] deyərək öz Konqresinə İraqı işğal edəcəyinin ilk siqnalını vermişdir. 2003-cü il martın 20-də İngiltərə ilə birlikdə "İraqa Azadlıq Əməliyyatı" (Operation Iraqi Freedom) adı altında hərbi əməliyata başlanıldı. BMT-nin Silah müfəttişi Hans Blixin BMT Təhlükəsizlik Şurasında, 7 Mart 2003-ci il tarixli çıxışında"bəzi problemlərlə qarşılaşsaqda bütün İraqa əvvəldən xəbər vermədən istədiyimiz formada nəzarət edə bilirik. Vəzifəmizi bitirməyimiz üçün nə qədər zamana ehtiyac var deyə soruşsanız ...... illər və ya həftələr deyil yalnız bir neçə aya ehtiyacımız var" [45] deməsinə baxmayaraq, bu çıxışdan yalnız 13 gün sonra İraqın işğalı başlamışdır. İraqın işğalının əsas səbəbi kütləvi qırğın silahlarının inkişaf etdirilməsi iddiası olsa da, əlavə səbəblər kimi də İraq hökumətinin Əl-Qaidə terror təşkilatı ilə əlaqədə olduğu və Fələstinli kamikazelərə kömək etdiyi göstərilmişdir. Ancaq nə kütləvi qırğın silahlarının, nə də digər əlaqələrin varlığı sübut edilməmişdir. Bundan əlavə, bu işğala insani don da geydirilərək İraq xalqını Səddam diktatorluğundan qurtarmaq və ölkəni demokratikləşdirərək insan haqqlarını bütün İraqda təmin etmək kimi arqumentlər dəİraqın işğalının əsas səbəblərindəndir [15].

İraqın ilk işğalında Amerika və İngilis hərbi qüvvələriilə yanaşı, Avstraliya, Danimarka, İspaniya və Polşadan da hərbi qüvvələr iştirak etmişdir. ABŞ və İngiltərədən əlavə 4 ölkənindəstək verdiyi bu müharibədə daha sonradan 36 ölkə də İraqdakı Çoxmillətli Qüvvələrin (Multi National Force. MNF-I) tərkibində iştirak etmişdir. Zaman keçdikcə ölkələrindəki siyasi təzyiqlər səbəbi ilə başda Avropa Birliyi ölkələri olmaqla bir çox ölkə MNF-dən qüvvələrini geri çəkdilər. Buna görə də ABŞ hökuməti 2010-cu ilinyanvarın 1-dən etibarən MNF-nin adını dəyişərək İraqdakı ABŞ Qüvvələri (United States Forces Iraq, USF-I) adı iləfəaliyyət göstərməyə başlamışdır [23].

ABŞ-ın niyə məhz Əfqanıstan və İraqı hədəf seçməsi də maraq doğuran suallardandır. Sualın cavabını bu cür əsaslandıra bilərik. Əfqanıstan çox önəmli geosiyasi bir mövqedə yerləşir. Bu ərazilərə sahib olmaq, istər-istəməz ətraf ərazilərə də təsir göstərmək, həmin ərazilərdə də söz sahibi olmaq mənasına gəlir.

Əfqanıstan Çinin,Pakistannın, İranın və Rusiyanın sərhədindəki Orta Asya bölgəsinin mərkəzində yerləşir. Bu dövlətlərin demək olar ki, hamısının ABŞ və onun transmilli şirkətləri ilə bu və ya başqa problemləri mövcuddur. Eyni zamanda ABŞ Əfqanıstanda narkotik nəqliyyatının önəmini də bilirdi. Amma ABŞ-ın, daha doğrusu, NATO - nun bu bölgəni işğal etməsindən sonra narkotik dövriyyəsi xeyli artmişdır. İraqın isə ABŞ üçün önəmi regionda geostrateji mövqeyi və neft ilə bir başa bağlı idi. Bu gün də həmin ərazidəki neft ehtiyatının transmilli neft şirkətlər tərəfindən istehsal edilməsi bunun bariz nümunəsidir.

C.Buş administrasiyasından fərqli olaraq B.Obamanın hakimiyyətə gəlməsi ilə ABŞ-ın xarici siyasətində "sərt güc"ün yerini "yumşaq güc" almışdır. Bu təkcə B. Obama administrasiyasının həyata keçirdiyi siyasətlə deyil, eyni zamanda ABŞ-ın partiya siyasəti ilə əlaqələndirilir. Çünki ABŞ tarixinə nəzər salsaq görərik ki, hakimiyyətdə olduqları zaman respublikaçılar daha çox hərbi gücə, demokratlar isə yumşaq gücə əsaslanırlar. Buna görə də, Obamanın hakimiyyətə gəlməsi ilə istər seçki kampaniyası əsnasında, istərsə də seçildikdən sonra verdiyi bəyanatlarda dünyanın Buş iqtidarı müddətində unutmuş olduğu "yumşaq güc" anlayışını yenidən gündəmə gətirdiyini söyləmək mümkündür. Obamanın "yumşaq güc"dən istifadə edərək atdığı hər addım ABŞ-ın sarsılan imicini bərpa etməkdə strateji əhəmiyyətə malik olmuşdur. Belə ki, Obamanın ilk müsahibəsini Səudiyyə kanalı Əl-Arabiyaya verməsi, Amerikanın İslam dünyasının düşməni olmadığını vurğulaması, Fələstin İsrail probleminin həllində iki tərəfi də dinləyəcəyəm fikri və dünya dövlətləri ilə əməkdaşlıqdan bəhs etməsi yumşaq gücün göstəriciləri olaraq qiymətləndirilə bilər.

Nayın da qeyd etdiyi kimi, ABŞ güclü qalmaq istəyirsə yumşaq gücünə diqqət etməlidir. Hər nə qədər hərbi və iqtisadi güc başqalarının fikirlərini dəyişdirməkdə nəticə verəsə də, Corc Buş iqtidarında şahid olduğumuz kimi müvəffəqiyyətsizliklə də nəticələnə bilir. Sərt güc bəzən təsiredici rol oynasa da, gücün ənənəvi növləri və vasitələri dünya siyasətinin yeni problemləri ilə mübarizədəyetərli deyil [29].

Ümumilikdə belə nəticəyə gəlmək olur ki, Dünya Ticarət Mərkəzinə və Pentaqona təşkil edilən hücumlar, ABŞ-ı bu vaxta qədər vərdiş etmədiyi terror növü

ilə üz-üzə qoyaraq, həm Amerika rəsmi dairələrini,  həm beynəlxalq təşkilatları, həm də beynəlxalq əlaqələr üzrə mütəxəssisləri yeni dövrdə tətbiq olunan nəzəiyyələr üzərində daha çox işləməyə vadar etdi. Məhz bu hadisələr bütün dünyada şok effekti yaratmışdı. Çünki ən qüdrətli dövlət hesab olunan ABŞ-da belə miqyasda terror hadisəsinin reallaşdırıla biləcəyi inanılmaz idi. Rəsmi Vaşinqton da öz növbəsində terror aktının baş verdiyi ilk andan terrorçuların məhv edilməsi istiqamətində konkret güc siyasətinə start verdiyini bəyan etdi. Əslində hadisənin miqyası və xarakteri o dərəcədə kəskin və bütün bəşəriyyət üçün o qədər sarsıdıcı olmuşdu ki, demək olar ki, əksər dövlətlər ABŞ-a dəstək verməyə başladılar.Beləliklə də qlobal antiterror koalisiyası formalaşdı. Məlum olduğu kimi koalisiyanın ilk müdaxilə etdiyi ölkə Əfqanıstan oldu. Çünki 11 sentyabr hadisələrini törədən "Əl-Qaidə" terror təşkilatı əsasən bu ölkədə məskunlaşmışdı. Koalisiyada hətta Rusiya da iştirak edirdi. Bu isə qlobal terror təhlükəsinin nə qədər ciddi olduğunu ortaya qoyur. Əfqanıstandan sonra isə terrorizmlə və kütləvi qırğın silahlarının yayılması ilə mübarizə siyasətinin davamı kimi İraqa hərbi müdaxilə olundu. Ancaq İraqda KQS-nin olması sübut olunmadı.

# FƏSİL 2. ABŞ-ın HƏRBİ STRATEGİYASININ MÜASİR VƏZİYYƏTİ

## 2.1. XXI əsrin əvvəllərində ABŞ-ın hərbi strategiyasının regional aspektləri

Tarixən hər hansı bir ölkənin ərazisində xarici dövlətin qoşunlarının olması siyasi asılılıq kimi xarakterizə edilmişdir. Böyük imperiyalar işğal etdikləri ərazilərdə öz iqtisadi maraqlarını müdafiə etmək üçün imperiya sərhədlərindən kənarda qoşunlarını saxlayırdılar. Dünyanın ərazisinə görə ən böyük imperiyalarından biri olan Roma imperiyası, öz inkişafının ən yüksək dövründə Britaniyadan Misirə kimi olan torpaqlarda qoşunlarını saxladığı 37 əsas məntəqəyə sahib idi. Bu məntəqələr həm müharibə aparmaq məqsədilə dayaq nöqtəsi, həm bölgəyə nəzarət etmək, həm də ticarət yollarının təhlükəsizliyini təmin etmək kimi funksiyaları yerinə yetirirdi.

Soyuq müharibə dövründə qarşı-qarşıya mübarizə aparan hər iki blok öz təsir dairələrini rəhbərlik etdikləri hərbi ittifaqların hüquqi-təşkilatı çərçivəsi ilə müəyyənləşdirirdi. Buna uyğun olaraq hərbi bazalar da müttəfiq ölkələrdə yerləşdirilirdi. Dünyanın müxtəlif regionlarında həm Atlantik blokunun, həm də SSRİ-nin hərbi bazaları yerləşdirilmişdi. SSRİ-nin dağılması ilə yaranmış yeni geosiyasi mühitdə hərbi bazaların coğrafiyası və yerinə yetirdiyi missiyalar da dəyişdi. Son illər baş verən hadisələr də göstərir ki, artıq hərbi bazalar müdafiə deyil, hücum funksiyasını yerinə yetirir.

Müasir dövürdə informasiya texnologiyalarının bu qədər sürətlə inkişaf etməsi bu texnologiyalar vasitəsilə kosmosdan izləmə imkanlarına şərait yaradır. Bundan əlavə elektron ticarət və mürəkkəb maliyyə əməliyyatları mexanizminin mövcud olması keçmiş hərbi qarnizonların əksər funksiyalarını əvəz edə bilir. Dünyanın nüvə əsrinə daxil olması böyük dövlətlərin öz aralarında birbaşa

müharibə aparmaq ehtimalını demək olar ki, sıfıra yaxınlaşdırır. Çünki nüvə müharibəsi dünyanın sonu deməkdir. Artıq onlar arasındakı nüfuz mübarizəsi fiziki müharibədən informasiya müharibəsinə keçmişdir. Bütün bunları nəzərə aldıqda demək olar ki, bu cür hərbi dayaq məntəqələrinə xüsusi ehtiyac görünmür.Lakin XXI əsrdə formalaşan yeni geosiyasi şərait fərqli mənzərənin yaranmasına səbəb olmuşdur. Hazırda dünyadakı hərbi bazaların 95%-i ABŞ-a məxsusdur. XX əsrdə mövcud olan Almaniya, İtaliya, Yaponiyanın hərbi bazaları artıq ləğv olunmuş, Britaniya, Fransa və Rusiyaya məxsus hərbi bazaların sayı isə azalmışdır. ABŞ isə bu sahədə öz dominantlığını və yeni qüvvələr nisbətini əks etdirir.

ABŞ-ın ilk hərbi bazaları hələ 1898-ci ildə ABŞ-İspaniya müharibəsindən sonra yaradılmışdır. İspaniyaya qalib gəldikdən sonra ABŞ Karib hövzəsində və Okeaniyada üstün mövqe qazandı. ABŞ-İspaniya müharibəsi ABŞ-ın müasir qlobal hərbi şəbəkəsi üçün mühüm rol oynamışdır. Müharibənin nəticələrindən biri kimi 1898-ci ildə imzalanan Paris sülh müqaviləsinə əsasən İspaniyadan ABŞ-a keçən Filippin, Quam, Kuba, Puerto-Rikonun hər birində ABŞ-ın əsas hərbi bazaları yerləşdirildi. Sakit okeanda bir tərəfdən Filippin, digər tərəfdən Quam adasında strateji mövqeyə yiyələnməklə ABŞ Çin və Yaponiyanın əsas dənizçilik marşrutlarına nəzarəti ələ keçirdi. Kuba və Puerto-Rikodakı hərbi bazaları da Karib dənizində müdafiə xətti yaratmağa yönəlmişdi.

İkinci Dünya Müharibəsindən sonrakı illərdə və Soyuq müharibənin əvvəllərində ABŞ kommunizm ilə üzləşmək və SSRİ qarşısında sipər yaratmaq məqsədiylə Qərbi Asiyaya öz qüvvələrini yerləşdirdi. ABŞ-ın gözündə bu region kapitalizm üçün müharibə meydanı idi. SSRİ ilə silahlanma yarışında ABŞ dünyanın dörd bir tərəfində hərbi bazalar yerləşdirmə siyasəti həyata keçirirdi. Bu bölgələrdən biri də Qərb Asiya (Yaxın Şərq) idi. Önəmli bazaların çoxu ilk əvvəl Yaponiya, Almaniya və Cənubi Koreya kimi İkinci Dünya Müharibəsində güclü zərər çəkmişölkələrdə təsis edildi [33]. Müharibə dövründə ABŞ antihitler koalisiyasının müttəfiqləri olan İngiltərə və Fransadan onların limanlarından istifadə etmək və baza yerləşdirmək hüququ almışdı. Müharibə bitdikdən sonra

belə, ABŞ öz hərbçilərini İngiltərə, Qərbi Almaniya, İtaliya, Fransa, Belçika, İslandiya, Norveç, Yaponiya və Cənubi Koreyadan çıxarmadı. 1960-cı ilə kimi ABŞ digər dövlətlərin ərazisində hərbi kontingent yerləşdirə bilmək üçün 42 dövlətlə 8 çoxtərəfli müqavilə və 30 ölkə ilə ayrıca ikitərəfli müqavilə imzalamışdır. Birləşmiş Ştatlar bu ölkələr qarşısında öhdəlik götürərək onların müstəqilliklərinin qoruyacağına, kommunist rejimindən müdafiə edəcəyinə, Almaniya və Yaponiyanın qisas almasına mane olacağına söz verdi. Bütün bunlar onu deməyə əsas verir ki, ABŞ II dünya müharibəsindən də məharətlə istifadə etməyi bacardı.

Qlobal məkanda hərbi bazalar ABŞ xarici siyasətində II dünya müharibəsindən sonra daimi faktora çevrilmişdir. Hazırda dünyanın 130-dan çox ölkəsində ABŞ-ın 800-dən çox müxtəlif təyinatlı hərbi məntəqəsi mövcuddur. Bu məntəqələr arasında ərazisi hektarlarla ölçülən böyük hərbi bazalarla yanaşı hərbçi kontingentinin sayı 20 ilə 200 arasında olan kiçik aerodrom, əlaqə mərkəzi, analitik mərkəzlər də vardır. Bundan əlavə ABŞ silahlı qüvvələrinin strukturuna daxil olan 11 böyük hərbi gəmi də hərbi baza funksiyasını yerinə yetirir. Bu gəmilər dünyanın istənilən yerinə hərəkət etməklə “üzən hərbi baza” rolunu oynayır [6].

ABŞ-ın dünyadakı hərbi varlığı xüsusilə 11 sentyabr hücumları sonrasında daha da artmışdır. “11 Sentyabr 2001-ci ildən bəri Amerika Birləşmiş Ştatları Orta Asiyada Əfqanıstan, Qırğızıstan, Pakistan, Tacikistan və Özbəkistanda; Avropada Bolqarıstan, Gürcüstan, Macarıstan, Polşa və Rumıniyada; eyni zamanda Filippin, Cibuti, Oman, Qatar və İraqda da hərbi bazalar qurdu” [22].

ABŞ-ın xarici ölkələrdə hərbi qüvvə saxlamasının iki əsas səbəbi var:

1) strateji-siyasi səbəblər
2) hərbi səbəblər.

Strateji-siyasi səbəblər arasında ABŞ-ın dünyanın hegemon gücü olduğunu göstərmək istəməsi ən əhəmiyyətli faktordur. Hərbi səbəblər arasında isə regional proseslərə hakim olmaq və vaxtında məlumat almaq asanlığı, müttəfiqləri öyrətmək

imkanı, regionları daha yaxşı tanıyaraq strategiyalar qura bilmək və təcili vəziyyətlərdə dərhal hərəkətə keçmək aiddir.

ABŞ Quru, Hava və Dəniz Qüvvələrinin Avropada 109-134 min, Asiya və Sakit okeanda 90 min personalı var [6].

Hərbi büdcəsinin böyüklüyünə görə ABŞ hazırda 597 milyard dollarlıq büdcə ilə birinci yerdədir və dünya üzrə hərbi xərclərin təxminən 40 faiziona məxsusdur. Yəni ABŞ-ın hərbi büdcəsi Avropa, Afrika, Cənubi Amerika qitələri və bütün Yaxın Şərqin hərbi büdcələrinin cəmindən daha böyükdür. Bir maraqlı fakt da ondan ibarətdir ki, ABŞ ordusu ən çox neft istehlak edən qurumdur (ildə 17 milyard litr neft məhsulları işlədir). Üstəlik, Vaşinqton yalnız xaricdəki bazaları maliyyələşdirmək üçün hər il 250 milyard dollar vəsait ayırır [11].

Bu gün ABŞ-ın cəbbəxanasında 5113 nüvə başlıqlı silah mövcuddur. Əlavə olaraq, ABŞ ordusunun ixtiyarında nüvə bombası hazırlamaq üçün 500 tondan çox hazır maddə var. Hazırda ABŞ ordusunda 450 ədəd nüvə başlıqlı "Minuteman III" raketi var ki, onların da hədəfi 6 min kilometrə qədərdir. 288 balistik, eləcə də 1152 nüvə başlıqlı raket "Ohayo" sinfindən olan 14 sualtı nüvə qayığında yerləşdirilib. Həmin qayıqlardan Atlantik və Sakit okenlardan tutmuş, İranın cənub sərhədindəki Fars körfəzində və Ərəbistan dənizində də mövcuddur. Bu qayıqlarda 450 kiloton qüvvəsində (Xirosimaya atılan bombadan 30 dəfə güclü) TRİDENT II D5 raketləri daxil olmaqla, ümumilikdə 500 nüvə başlıqlı raket daşınır. İş bununla bitmir, dünya okeanında üzən 113 gəmidə də yanacaq doldurmadan ən uzaq məsafəyə uça bilən 60-a yaxın "B-2A Spirit" və "B-52H" bombardan təyyarələr də məhz atom bombaları ilə yüklənib. İranın üç tərəfi ABŞ hərbi bazaları ilə əhatələnib [11].

2010-cu ilmayın 26-da qüvvəyə minən "Milli Təhlükəsizlik Strategiyası" (National Security Strategy) ABŞ-ı dünyanın ən böyük və yeganə super gücü kimi təqdim edir. Sənəddə keçmişdə olduğu kimi gələcəkdə də ABŞ-ın dünyanı idarə edəcəyi və dünya lideri statusunu, hərbi gücünü mühafizə etmək üçün davam etdirəcəyi də aydın şəkildə ifadə olunur. ABŞ-ın digər bir qlobal gücün ortaya çıxmasına, beynəlxalq nizamı nəzarəti altına almasına və ya buna təşəbbüs etməsinə icazə vermək niyyətində olmadığı vurğulanır və  fikir bu şəkildə ifadə olunur: ABŞ

böyük hərbi gücə malikdir. Amerika xarici siyasətinin əsas dayağını təşkil edən bu hərbi üstünlüyü ancaq yüksək inkişaf etmiş iqtisadiyyatla qoruyub saxlamaq mümkündür. Bu fikir onu deməyə əsas verir ki, rəsmi Vaşinqton İkinci Dünya Müharibəsindən sonra olduğu kimi, yeni dünya nizamı qurularkən də liderliyini davam etdirmək və beynəlxalq qaydaları təyin etmək niyyətindədir [14].

Əvvəlkilərdən fərqli olaraq qüvvədə olan bu "Milli Təhlükəsizlik Strategiyası"nda XXI əsrin güc mərkəzləri kimi Çin, Hindistan və Rusiya göstərilmişdir. Sənəddə qeyd olunur ki, Rusiyanın beynəlxalq sahədə təsir gücününartması, Çin və Hindistanın getdikcə yaxınlaşması bu üç ölkəyə daha çox nəzarət edilməsinin vacib olduğunu sübut edir. Asiya - Sakit okean regionuna gəldikdə isə, bu regionun rifah və təhlükəsizliyinin təmin edilməsinin, Yaponiya, Cənubi Koreya, Avstraliya, Filippin və Tayland ilə olan münasibətlərin daha da inkişaf etdirilməsinin önəmli olduğu bildirilir. Yaponiya və Cənubi Koreyada Amerika hərbi bazalarının gələcəkdə də mövcud olacağı ifadə edilir [49].

ABŞ-ın Asiya-Sakit okean regionuna önəm verməsini və xarici siyasətində balans yaratmasını "əsrin dönüşü" kimi adlandırmaq olar. Soyuq müharibənin bitməsi ilə ABŞ Yaxın Şərq və keçmiş SSRİ-nin ərtafında olan ölkələrin "sahibsiz" qalmasından istifadə edərək sözü gedən ölkələri ətrafında birləşdirmək üçün öz hərbi qüvvələrini bu ərazilərdə yerləşdirdi.Ancaq müharibə ərazilərində sabitliyin bərqərar olmaması, verilən itkilər və daxili siyasətin də təsiri ilə bu proses getdikcə zəifləməyə başladı. 2008-ci ildə Barak Obama hakimiyyətə gəldikdən sonra Asiyada balansın yenidən bərpa oluması çağırışı ilə yeni siyasət gündəmə gətirildi. Busiyasətin iki mərhələsi var. Birinci mərhələ 2008-ci il seçkilərində Barak Obamanın qalib gəlməsindən sonra ABŞ-ın qlobal mövqeyinin təyin edilməsi və yenidən konfiqurasiya edilməsi prosesinin başlanmasıdır. Bu proseslərdən sonra "Sakit Okean Əsri" layihəsi beynəlxalq ictimaiyyətin diqqətini çəkdi. Diqqət çəkən məqam əvvəl Obamanın Tokio ziyarətində (2009-cu il) özünü "Sakit Okean Rəhbəri" kimi tanıtması və sonra Hillari Klintonun imzası ilə nəşr olunan (2011-ci il) məqalə oldu. Bu müddətdə konseptual səviyyədə "mərkəz" (pivot), onun ardınca da "balansın yenidən qurulması" (rebalance) anlayışı beynəlxalq münasibətlərə yeni

anlayışlar kimi daxil oldu. Asiya Sakit Okean regionu ABŞ-ın xarici siyasətində XXI əsrin əsas prioritet istiqamətləri kimi qəbul olundu.

İkincisi isə 2013-cü ildə Barak Obamanın yenidən seçilməsi ilə hazırlanan siyasət layihələrinin qüvvəyə minməsi prosesidir. Yaponiyanın kənarda qaldığı və sonra geniş Hind-Çin və Malayziya dünyasını da özünə daxil edən "kommunizm" təhlükəsinə qarşı Cənub-Şərqi Asiyada regional təşkilatların yaranması prosesi Asiya Sakit Okean regionunda qurulan ABŞ hakimiyyətinin XXI əsrdə yeni və daha çox inkişaf etmiş formasını üzə çıxarır. ABŞ-ın bu regiona marağının artmasında "güclənən Çin" faktorunun əhəmiyyəti də göz önündədir. Çin iqtisadi inkişafını hərbi xərcləri ilə nümayiş etdirir və eyni zamanda da Şərqi və Cənubi Çin dənizinin geniş sahəsini "tarixi suverenlik sahəsi" kimi də qiymətləndirir [16].

ABŞ-ın Asiya Sakit okean regionuna yönələn xarici siyasətinin detallarına xarici işlər naziri Hillari Rodham Klintonun "Foreign Policy" jurnalında, 11 Noyabr 2010-cu ildə yayımlanan "Amerikanın Sakit okean Əsri" başlıqlı məqaləsində yer verilmişdir. Məqaləyə görə Asiyanın böyümə və inkişaf etmə dinamizmini nəzarətdə saxlamaq Amerikanın iqtisadi və strateji maraqlarının mərkəzində dayanır. ABŞ iqtisadiyyatının canlanmasının, ixracatının artırmasının, Asiyanın genişlənməyə davam edən böyük istehlakçı bazasından istifadə edə bilməsinə bağlı olduğu ifadə edilmişdir.

ABŞ-ın regionla bağlı strategiyasında Asiya - Sakit okean bölgəsinə bütün strateji qaynaqlarını köçürəcəyi, "hər ölkəyə", "hər küncə" diplomatik vasitələrin hamısını göndərərək Asiyada sürətlə baş verən əhəmiyyətli dəyişiklikləri izləyəcəyi və inkişaf edən vəziyyətlərə adaptasiya olacağı qeyd edilir. Bu çərçivədə:

- təhlükəsizliyə istiqamətli iki tərəfli ittifaqları gücləndirmək;
- Çin də daxil olmaqla güclü rəqiblərləbirgə əməkdaşlıq etmək;
- regional çoxtərəfli təşkilatlarla yaxın əlaqələr qurmaq;
- regionla bağlı ticarət və sərmayələri artırmaq;
- geniş bir sahəyə əsaslanmış hərbi mövcudiyyətini möhkəmləndirmək;
- "İnsan hüquqları və demokratiyanın gücləndirilməsi" üçün fəaliyyət göstərəcəyi bildirilir [40].

ABŞ-ın  ölkə xaricində hərbi potensiala malik olması müasir dövrdə onun üçün aşağıdakı səbəblərdən əhəmiyyətlidir:

1. Rəqib dövlətlərə qarşı müttəfiqləri və tərəfdaşları qorumaq;
2. Strateji baxımdan həssas bölgələrdə ABŞ-ın təsirini artırmaq;
3. Hərbi rəqabətdə düşmənə qarşı daşındırıcılıq siyasəti həyata keçirmək.

Rəqib dövlətlərə qarşı müttəfiqləri və tərəfdaşları qorumaq dedikdə Asiya ölkələrini Çin və Şimali Koreya təhdidindən, Yaxın  Şərq müttəfiqlərini isə İranın və terrorist qrupların təsirindən qorumaq nəzərdə tutulur. ABŞ-ın silah texnologiyası sahəsində özünə Çini və nüvə məsələsi ilə bağlı Şimali Koreyanı və İranı rəqib olaraq gördüyünü söyləyə bilərik [41].

Bundan başqa ABŞ-ın hərbi sahəyə ayırdığı maliyyə də onun hərbi üsünlüyə nə qədər önəm verdiyinin göstəricisidir. ABŞ-ın hərbi xərcləri dünya dövlətlərinin ümumilikdəki hərbi xərclərinin 40%-ni,  ən güclü rəqiblərindən biri olan Çin Xalq Respublikasının hərbi xərcləri isə cəmi 8,2%-ni təşkil edir. Bundan başqa  Avropa, Afrika, Yaxın Şərq və Cənubi Amerikanın hərbi xərcləri də ABŞ-ın hərbi xərclərindən aşağıdır. Ölkədə xalqdan toplanan vergilərin təxminən 40%-i hərbi xərclərə ayrılır. Toplanan vergilərin 2%-i isə diplomatiyaya ayrılır [55].

Birləşmiş Ştatların hərbi gücündən danışarkən ən önəmli faktı bildirmək lazımdır ki, o, dünyanın ən böyük nüvə gücünə sahib ölkədir. ABŞ-ın 5113 nüvə başlığı var [51]. Bununla yanaşı ordusunda 500 qısa mənzilli taktiki nüvə başlığı mövcuddur. 2010-cu ilin aprelində Rusiya Federasiyası ilə Amerika Birləşmiş Ştatları arasında Praqada imzalanan Strateji Silahların Azaldılması Andlaşması ilə hər iki ölkə 1550-dən çox nüvə silah başlığına sahib olmamağı qəbul etdilər [26]. Buna baxmayaraq ABŞ-ın 500 tondan çox nüvə silahı hazırlamaq üçün maddəsi var [21].

ABŞ hərbi bazalarıyerinə yetirdikləri funksiyaları baxımından hava bazası, quru əsası, dəniz bazası və casusluq olmaqla dörd növə ayrılır. Bazaların əsas yerləşdirmə məqsədi dünya iqtisadiyyatı və maliyyə bazarlarına nəzarət etmək və təbii qaynaqlar üzərində tam suverenliyi təmin etməkdir [42]. Yaxın  Şərqdəki bazaların da bu mənada 3 əsas məqsədi var : İran, terrorizm və neft [43].

ABŞ-ın gücündən danışarkən onun hərbi potensialına da diqqət yetirmək lazımdır. 240 illik dövr ərzində ABŞ 25 müharibədə iştirak edib. Dünyada silah ixracının 30%-dən çoxu ABŞ-ın payına düşür [7]. 2011-ci ilin dekabrında ABŞ ordusunun şəxsi heyətinin sayı 1 565 000 nəfər idi. Bunların 1 217 000 nəfəri ölkə daxilində, qalan 351 000 nəfəri isə xaricdə yerləşir. Xaricdə dislokasiya olunan hərbçilərin 102 mini Əfqanıstanda, 15 mini Küveytdə xidmət edir. ABŞ bölgədə elan edilmiş sülhü təmin etmək məqsədi iləəksəriyyəti Almaniya, İtaliya və Böyük Britaniyada xidmət keçən 80 min əsgər yerləşdirib. Daha 89 min ABŞ əsgəri Asiyada – 35 min nəfər Yaponiyada, 37 min nəfər Cənubi Koreyada, 14 min nəfər açıq dənizdə dislokasiya olunub.Fars körfəzində ABŞ qoşunlarının sayı təxminən 40 min nəfər təşkil edir: Qətərdə 7500, Bəhreyndə 5000, Birləşmiş Ərəb Əmirliklərində 3000-ə yaxın və bundan bir qədər də az Səudiyyə Ərəbistanı və Omandadır [6].

ABŞ-ın bu mühüm strateji regionlardakı mövcudluğunun məqsədi həmin ərazilərdə baş verən siyasi proseslərə müəyyən format verməkdir. Həmin istiqamət aşağıdakı üsullarla reallaşır: müttəfiqlərə istiqamətlənən mümkün hücumlara qarşı çıxmaq; əsas regional iştirakçılarda, xüsusən də öz müttəfiqlərində əminlik yaratmaq; həmçinin rəhbərliyin və regional əməkdaşlığın gücləndirilməsi.

Soyuq müharibədən sonra ABŞ prezidentlərinin başqa ölkələrin daxili işlərinə açıq şəkildə qarışmaq xarakteri daşıyan Yaxın Şərq siyasətində əslində heç bir dəyişiklik baş verməyib. Kiçik Corc Buşun prezidentliyi dövründə terrorizmlə mübarizə adı altında 2001-ci ildə Əfqanıstana və 2003-cü ildə İraqa qarşı reallaşdırılan müdaxilələr ABŞ-ın Yaxın Şərqdəki hərbi strategiyasının zirvə nöqtəsi olmuşdur.

Hazırda Birləşmiş Ştatların Qətər, Bəhreyn, Küveyt, BƏƏ, İraq, Səudiyyə Ərəbistanı, Oman, Türkiyə, Əfqanıstan və Pakistan kimi ölkələrdə hava və dəniz hərbi bazaları mövcuddur.

ABŞ-ın Bəhreyndəki 5-ci donanması: Fars körfəzindəki müharibənin sona çatması və Səddam Hüseyn rejiminin devrilməsindən sonra Bəhreyn ABŞ üçün strateji əhəmiyyət qazandı. Bill Klintonun prezidentliyi dövründə 1995-ci ildə qısa müddət ərzində Bəhreyn hərbi dəniz qüvvələrinin əsas körpüsü xeyli sayda ABŞ

mühəndisinin fəal iştirakı ilə əhəmiyyətli dərəcədə genişləndirildi. Nəticədə, ABŞ-ın beşinci donanması Bəhreynin paytaxtının qərb hissəsində yerləşdirildi. Beşinci donanmanın körpüsü Manamanın qərb hissəsində yerləşir və adətən, 2-dən 5-dək esmines və on hərbi kater saxlanılır. Bundan başqa, orada bir neçə sürətli gəmi və hərbi təyyarə də mövcuddur. Esmineslər İranın "Jamaran" gəmisinin oxşarı olsa da, raket və müdafiə-hücum sistemləri daha mükəmməldir. Gəmilər neytral sularda nəzarət funksiyasi yerinə yetirir. Bəhreyn hökuməti bu bazadan İrana qarşı istənilən tədbirin keçirilməsinə qadağa qoysa da, İran dəfələrlə bildirib ki, amerikalılar tərəfindən hücum başlanacağı halda 5-ci donanma İranın müxtəlif raketləri və hərbi hava qüvvələrinin hücumuna məruz qalacaqdır.

ABŞ-ın Bəhramdakı hərbi bazası: ABŞ-ın bu hərbi bazası Əfqanıstanın Pərvan vilayətinin qədim Bəhram şəhərinin yaxınlığında yerləşir. Onun aerodromunun enmə-uçuş zolağı o qədər böyükdür ki, hətta "Lockheed C-5" və "AN-225" də daxil olmaqla istənilən hərbi təyyarə ora eniş edə bilər. Hazırda bu bazada "Onuncu dağ diviziyası"nın hissələri, dəniz piyadaları dəstəsi və ABŞ-ın hərbi-hava qüvvələrinin 445-ci qrupu yerləşir.

ABŞ-ın Qətərdəki Əl-Ədid hərbi bazası: Qətərin paytaxtı Dohanın qərbində yerləşmiş bu hərbi bazanın başqa adı da Əbu Nahlə aerodromudur. Əl-Ədid, əslində, Fars körfəzindəki qərbyönlü qüvvələrin koalisiyasının hərbi bazasıdır. Qətər əmiri şeyx Hamad 1999-cu ildə ABŞ hökumətindən xahiş etdi ki, onun hökumətinin müdafiəsində durmaq üçün ölkəyə 10 min yüksək səviyyəli təlim keçmiş hərbiçi göndərsin. Əslində, ABŞ və Qətərin hərbi əməkdaşlığı hələ İraqa qarşı "Səhrada tufan" əməliyyatından sonra 1991-ci ildən başlayıb və hətta bu əməkdaşlığa uyğun müqavilə də imzalayıblar.

ABŞ-ın Omandakı Tumrit hərbi bazası: Omanı ABŞ-ın Fars körfəzi bölgəsində ən yaxın tərəfdarı hesab etmək olar. İki ölkə arasında ilk hərbi saziş hələ 1980-ci ildə imzalanmışdır. Hazırda bu ərəb ölkəsinin ərazisində ABŞ hava qüvvələrinin 26 min nəfərlik hərbi bölmələri dislokasiya olunub. Omanın eyniadlı şəhərindən bir qədər uzaq məsafədə yerləşən Tumrit hərbi bazası ABŞ tərəfindən icarəyə götürülmüşdür.

Bazanın digər özəlliyi onun ABŞ hərbçiləri üçün strateji əhəmiyyət daşıyan Ədən körfəzi və Hind okeanına yaxın yerləşməsidir. Bunun sayəsində ABŞ-ın Bəhreyndə yerləşmiş 5-ci donanması ilə müntəzəm olaraq əlaqə yaratmaq mümkündür. Tumrit bazasındakı hərbi hissələr ABŞ-ın bölgədəki hərbi hissələrinə texniki dəstək verir. Məsələn, bu bazadan qırıcıların yanacaqla təmin edilməsi, nəqliyyat xidmətinin təşkili və başqa mühüm bazalara avadanlığın çatdırılması məqsədilə istifadə edilir. Baza amerikalılar üçün ümumən önəmli, külli miqdarda hərbi avadanlığın cəmləşdirildiyi strateji obyektdir. Onu amerikalıların bölgədəki digər bazalarının yanacaq və nəqliyyatla təmin olunmasında həlledici vasitə saymaq olar [6].

Yaxın Şərq kimi Avropa ərazisi də strateji baxımdan ABŞ üçün böyük əhəmiyyət daşıyır. Amerika Birləşmiş Ştatları və bəzi Avropa ölkələri arasındakı əlaqələr Avropalı mühacirlərin Yeni Dünyaya doğru səfər etməyə başladığı XVII və XVIII əsrlərdəyaranmağa başlamışdır. Bu iki qlobal gücü bağlayan xüsusiyyətlər yalnız siyasi, hərbi və iqtisadi deyil, eyni zamanda  tarixi və ictimai faktorlardır. Bundan başqa Avropanın ABŞ üçün geosiyasi baxımdan əhəmiyyətli olan üç əsas istiqaməti vardır. Birinci istiqamət Şimal Qütbüdür. Belə ki,  Arktika altısı Avropada olmaqlasəkkiz ölkənin torpaqlarını (quru və dəniz) və Rusiyanı əhatə edir. Şimal Qütbü ABŞ üçün yalnız təbii qaz və neft kimi geniş qaynaqlara sahib olduğu üçün deyil eyni zamandaAvropaya məhsul ixrac etmənin ən əlverişli yolu olduğu üçün əhəmiyyət daşıyır. Bir sonrakı istiqamət Avropanın Balkanlar vasitəsilə Orta Şərqə çıxışıdır. Üçüncü istiqamət isə Aralıq dənizi və Şimali Afrikadır. Cənubi Avropa ölkələri Aralıq dənizində əhəmiyyətli dəniz infrastrukturuna və bu ərazidə tez bir müddətdə müdaxilə edə bilmək qabiliyyətinə malikdir . Ərəb Baharının yeni yarandığı illərində və Liviyadakı vətəndaş müharibəsi dövründə bu ərazinin ABŞ üçün nə qədər önəmli olduğunu görmək mümkündür. Bütün bu xüsusiyyətlər birləşdiyində, xüsusilə də ABŞ-ın əsas hədəflərindən birinin Rusiya olduğunu nəzərə aldıqda Avropanın ABŞ üçün çox əhəmiyyətli region olduğunu deyə bilərik.

Avropadakı ABŞ hərbi qüvvələri 50-dən çox ölkədə 1200-dən çox sahədə fəaliyyət göstərən 450000-dən çox əsgərdən ibarətdir. Soyuq Müharibənin başa

çatmasından sonra, Avropadakı ABŞ hərbi qüvvələri, sürətlə 213000 əsgərə düşdü və 1993-cü ildən sonraburadakı əsgərlərin sayı 112000-ə düşdü. Bu gün Avropada davamlı olaraq fəaliyyət göstərən 67000 ABŞ hərbi birliyi var. Hərbi infrastruktur və Avropadakı ABŞ hərbi birliyi (EUCOM) hissələr halında təsnif edilə bilər [47].

Liviya müdaxiləsi beynəlxalq münasibətlər tarixində sonuncu hərbi müdaxilə kimi qeydə alınıb. Bu müdaxilə zamanı ABŞ Hərbi Dəniz Qüvvələri dünyanın ən uzun aviadaşıyıcısı olan “USS Enterprise”si Liviya sahillərinə yönləndirmişdi. Aviadaşıyıcı Liviyadakı vətəndaş müharibəsi ilə əlaqədar, Somali quldurları ilə mübarizə tapşırığından geri çağırılmışdır. Penntaqon fevralın 28-də Şimali Afrika sahillərində Hərbi Hava və Hərbi Dəniz qüvvələrinin yenidən qruplaşdırılacağını bəyan etmişdi. ABŞ və Böyük Britaniya liderləri isə Liviyada müxalifəti qorumaq üçün hərbi gücə əl atacaqlarını istisna etməmişdilər. Britaniyanın baş naziri Devid Kemeron Müəmmər Qəddafinin nümayişçilərə qarşı təyyarə və vertolyotlardan istifadə etdiyi təqdirdə, onun özünə qarşı da hava zərbələrindən istifadə olunacağını vurğulamışdı. ABŞ, Britaniya və Fransa xüsusi təyinatlılarını Liviyaya göndərmişdilər. Bu 3 ölkənin xüsusi təyinatlıları Liviyanın şərq rayonlarında yerləşdirilmişdi.

Qəddafi bildirirdi ki, “Qərb Liviyanı Böyük Britaniya, Fransa və ya ABŞ-ın müstəmləkəsinə çevirmək niyyətindədir. Avropa ölkələri artıq Fars körfəzi və İraqın neft yataqlarına nəzarət edir”. 2011-ci ilin fevralın 23-də Liviya iğtişaşları ilə bağlı ilk dəfə şərh verən ABŞ prezidenti Barak Obama qeyd etmişdir ki, Liviya hakimiyyəti Müəmmar Qəddafi rejimi əleyhinə etiraz edənlərə qarşı zorakılıq işlədilməsinə görə məsuliyyət daşımalıdır. Onlar beynəlxalq qurumlarla birlikdə Liviya böhranına qarşı çıxış yolunu axtarmağı planlaşdırıblar”. ABŞ prezidenti göstəriş verib ki, onun milli təhlükəsizlik komandası Liviyada keçirilən seçkilər üçün təkliflər hazırlasın. Həmin gün Avropa Birliyinin rəsmiləri də Qəddafi rejiminə mümkün cavab tədbirləri kimi sanksiyalar təklif etmişdilər. Amerika Birləşmiş Ştatları Liviya xalqının Müəmmar Qəddafiyə inamının itdiyini hesab edirlər. Liviya hökumətinə qarşı hazırladıqları sanksiyalar paketini Ağ Evin mətbuat katibi Cey Karni bəyan etmişdi. O deyirdi ki, “Belə görünür ki, Qəddafi xalqının ona qarşı olan

etimadını itirib. O vətəndaşlara qarşı zorakılıq tətbiq olunmasına sakit baxır, liviyalıların nəzərində onun hakimiyyətinin leqallığı sıfıra enib”. ABŞ prezidenti Barak Obama Liviya lideri Müəmmər Qəddafiyə, onun ailə üzvləri və hökumətinə qarşı birtərəfli qaydada maliyyə sanksiyalarının tətbiq olunması barədə fərman imzalamışdı. Barak Obama öz nitqində qeyd etmişdir ki, “Mən ABŞ prezidenti Barak Obama hesab edirəm ki, polkovnik Müəmmar Qəddafi, onun hökuməti və ən yaxın silahdaşları silahdan, muzdlu əsgərlərdən və əsassız zorakılıqdan istifadə edərək Liviya xalqına qarşı yolverilməz addımlar atıblar. Mən həmçinin hesab edirəm ki, Liviyanın dövlət əmlakı qorunmasa Qəddafi, onun ailəsinin, hökumətinin üzvləri və ən yaxın silahdaşları bu əmlakı ələ keçirə bilərlər”. Fərmana əsasən, Qəddafi, onun hökuməti və dörd qohumunun bütün əmlakı və bank hesabları dondurulmalı , Liviya hökuməti ilə bütün bank əməliyyatlarına qadağa qoyulmalı idi. Bundan başqa, ABŞ dövləti Liviyaya müdafiə sənayesi mallarının idxalına və bu ölkəyə müdafiə sahəsində xidmət göstərməyə icazə verən bütün mövcud lisenziyaları dondururdu.

BMT Təhlükəsizlik Şurası 2011-ci il fevralın 26-da Liviya rəhbərliyinə qarşı sanksiya tətbiqi təklifi barəsində qətnamə qəbul etmişdir. Qətnamədə Liviyaya qarşı hərbi embarqonun tətbiqi, ölkə rəhbərlərinin xaricdəki hesablarının dondurulması və onların xaricə səfərlərinə qadağa qoyulması təklif edilirdi. Qətnamədə göstərilirdi ki, dinc Liviya vətəndaşlarına qarşı hücumlar “bəşəriyyətə qarşı cinayət kimi qiymətləndirilə bilər”. Bu hala isə Haaqadakı Beynəlxalq Məhkəmə tərəfindən baxıla bilər. Avropa Birliyi Liviyada dinc nümayişçilərə qarşı əsassız güc tətbiqinə görə məsuliyyət daşıyan Müəmmar Qəddafi və onun ailə üzvlərinə qarşı sanksiyalar paketini razılaşdırmışdı. ABŞ NATO-dakı tərəfdaşları ilə Liviyada Müəmmar Qəddafi rejiminin hərbi müdaxilə ilə devrilməsi imkanlarını da müzakirə etmişdir. Birləşmiş Ştatların BMT-dəki nümayəndəsi Syuzan Rays Vaşinqtonun Liviya müxalifəti ilə əlaqələr qurduğunu qeyd etmişdi. ABŞ-ın BMT-dəki səfiri Syuzan Rays vurğulayırdı ki, “Biz problemin həlli üçün bütün mümkün variantları müttəfiqlərimizlə müzakirə edirik”.

Müasir dövrdə ABŞ-ın Latin Amerikasındakı mövqeyi də göz önündədir. ABŞ istər iqtisadi, istər siyasi, istərsə də hərbi cəhətdən hər zaman Latın Amerikasına güclü təsiri olan ölkədir. Onun, Panamada hərbi fəaliyyəti 1903-1977-ci illəri əhatə edirdi.Ancaq Panama ilə imzalanan 1977-ci il tarixli anlaşma ilə ABŞ-ın Panamadakı hərbi fəaliyyət müddəti daha da uzadıldı. 1997-ci ildə isə Pentaqonun Latın Amerikasındakı hərbi komandirliyi olan Amerika Cənubi Komandirliyi də Panamadan Mayamiyə köçürüldü. Hazırki dövrdə Amerika Cənubi Komandirliyi idarəsindəki ABŞ hərbi bazası 4 hərbi bazanı özündə əks etdirir:

1) Ekvador, Curaçao və Salvadordakı hərbi birlikləri özündə birləşdirən "Hərbi Əməliyyat" bazası;

2) Hondurasdakı Soto Cano Hərbi Hava bazası;

3) Kubadakı Quantanamo Hərbi Dəniz bazası;

4) Narkotiklə mübarizə adı altında müxtəlif ərazilərdə yerləşdirilən radar bazaları.

Meksika ABŞ-dan təhsil, avadanlıq və digər ehtiyaclar üçün maliyyə və hərbi müstəvidə yardım alır. ABŞ Meksikaya narkotiklə mübarizə və sərhəd təhlükəsizliyini təmin edilməsi adı altında hərbi yardımlarla birikdə 2007-ci ildən bu yana 1,4 milyard dollar maliyyə ayırmışdır. Buş rəhbərliyi tərəfindən 2006-cı ildə imzalanan "Merida Sazişi" ABŞ-la Meksika və Mərkəzi Amerika ölkələrinin narkotik ticarəti ilə mübarizədə əməkdaşlıq etməsini nəzərdə tutur.

Latın Amerikasındakı və Karib dənizidəki ABŞ bazaları narkotiklə mübarizə adı altında ABŞ-ın Latın Amerikasındakı bazarlarına çıxışını təmin etmək, narkotik daşınmasına nəzarət etmək və neft başda olmaqla təbii resursları əldə etmək məqsədi daşıyır. Panama və Porto Rikodakı hərbi bazaların bağlanmasına baxmayaraq Latın Amerikasında Kolumbiyadakılar da daxil olmaqla çox sayda nisbətən kiçik baza yerləşdirilmişdir [25].

Son illərdə qarşıdurmaları, xarici sərmayələri və beynəlxalq hərbi müdaxilələri ilə gündəmə gələn Afrika ölkələrində ABŞ, Fransa, Yaponiya və İngiltərənin hərbi bazaları var.

ABŞ-ın, Afrika ölkələrindən Keniya, Cibuti, Efiopiya, Uqanda, Mərkəzi Afrika Respublikası və Cənubi Sudanda hərbi bazaları, Əlcəzair, Niger, Mavritaniya, Çad, Nigeriya, Mali, Burkina Faso, Fil Dişi Sahili (Kottivar) və Seneqalda da hərbi birlikləri mövcuddur.ÜmumilikdəAfrika qitəsində 20 ölkədən 700 min Amerika əsgərinin xidmət etdiyi iddia olunur [19].

Yuxarıda qeyd etdiklərimizdən belə nəticəyə gələ bilərik ki, ABŞ hərbi bazalarının yerləşmə coğrafiyasını geosiyasi baxımdan təhlil etdikdə bir neçə məqam diqqəti cəlb edir. Birinci məqam ən böyük hərbi bazalar ABŞ-la “ xüsusi münasibətlər”ə malik Britaniya, İsrail, Koreya Respublikası və ikinci dünya müharibəsini uduzduqdan sonra bərpa işlərini ABŞ-ın dəstəyi ilə aparan Almaniya və Yaponiyada yerləşir. Lakin maraqlıdır ki, Avropada ABŞ hərbçilərinin və bazalarının ən çox olduğu ölkə Britaniya deyil, Almaniyadır. Eynilə Asiyada da Cənubi Koreya deyil, Yaponiyadır.

Almaniya ərazisində 205 hərbi obyekt və 250 min nəfərdən çox şəxsi heyət var [5].

İkinci məqam isə ABŞ hərbi bazalarının müxtəlif ərazilərdə yerləşdirilməsi hərbi əməliyyatlar və qaynar nöqtələr hesabına daim genişlənməsi ilə əlaqədardır. Belə ki, Koreya müharibəsi, Filippin azadlıq hərəkatı, Küveyt, Balkan, İraq, Əfqanıstan müharibələri bu region və ölkələrdə ABŞ hərbi bazalarının yaradılması ilə nəticələnmişdir. 11 sentyabr hadisələrindən sonra isə həmin vaxta kimi əlçatmaz görünən – Post-Sovet məkanında (Özbəkistan və Qırğızıstan) ABŞ hərbçilərinin olduğu məlum oldu. Yəni hər bir müharibə və ya münaqişənin nəticələrindən biri çox vaxt ABŞ-ın həmin ərazilərdə hərbi baza yaratmasına şərait yaradır. Taktiki baxımından müharibə və münaqişə ocağı ABŞ-ın hərbi təsir dairəsinin genişləndirilməsi üçün stimullaşdırıcı rol oynayır.

Digər diqqət çəkən bir məqam isə neftlə zəngin bölgələr və neft marşrutları, ticarət yolları, nəqliyyat dəhlizlərinə nəzarət nöqtələri üzərində ABŞ hərbi bazalarının cəmlənməsidir. Demək olar ki, dünyanın neftlə zəngin bütün bölgələri ətrafında ABŞ hərbi bazaları mövcuddur. Münaqişələr isə bu bölgələrə daxil olmaq üçün sanki bir vasitədir. Məsələn, Küveyt müharibəsindən sonra

ABŞ İran körfəzi hövzəsinə (Bəhreyn, Qatar, Oman) daxil oldu, İraq müharibəsi zamanı isə regionun digər ölkələrində öz hərbi bazalarını yaratdı. Hazırda bu region ABŞ-ın hərbi bazalarının ən çox cəmləşdiyi bölgələrdən biri hesab edilir. Hətta mühüm su yollarının üzərində də (Panama, Cibuti, Malayziya, Oman və s.) amerikan hərbçilərinin nəzarəti vardır. Bu mənada son illər müşahidə olunan əsas məqamlardan biri ABŞ-ın hərbi bazalarının geoiqtisadi mərkəzlərə doğru yönəlməsi ilə bağlıdır. Ən sonuncu məqam isə, XXI əsrin əsas prioritet istiqamətlərindən biri sayılan Asiya-Sakit Okean regionunda ABŞ-ın hərbi fəaliyyətini gücləndirməsi və bu regionda güclü təsirə malik olmağa çalışmasıdır. Bu regionun rəsmi Vaşinqton üçün önəmli olmasının əsas səbəbi sürətli inkişaf edən və ABŞ üçün güclü rəqib olan Çin faktorudur. Beləliklə, yeni geosiyasi şəraitdə və perspektivə hesablanmış proqnozlara əsasən iddia etmək olar ki, müxtəlif iqtisadi maraqların olmasına baxmayaraq ABŞ xarici siyasətində hərbi bazaların yerləşdirilməsinə ilk növbədə ölkənin geosiyasi ambisiyaları təsir göstərir. Dünyadakı qaynar nöqtələr və bu hərbi bazaların sinxron asılılığı isə vəziyyəti bir qədər də mürəkkəbləşdirir.

## 2.2. ABŞ-ın hərbi strateji tətqiqat mərkəzləri

Amerika rəhbərliyi hərbi-elmi araşdırmaları ABŞ silahlı qüvvələrinin qurulmasında və bu sahədə qərar qəbul edilən zaman istifadə olunan ən mühüm analitik alət kimi təhlil edir.

Hərbi-elmi araşdırmaların rolu artdıqca elmi tövsiyyələrə tələblər artır, hərbi-nəzəri tədqiqatların tematikası genişlənir, tədqiqat fəaliyyətinin forma və üsulları təkmilləşir. Amerikalı mütəxəssislərinin hesab etdiyi kimi elmi işlərin səmərəliliyi əhəmiyyətli dərəcədə onların təşkil olunma keyfiyyətindən asılıdır. Bununla əlaqədar olaraq, hərbi-nəzəri sahədə araşdırmaların planlaşdırılması və

maliyyələşdirilməsi, habelə tədqiqat prosesinin gedişatına nəzarət ABŞ müdafiə nazirliyinin fəaliyyətinin ən vacib tərəflərindəndir.

Birləşmiş Ştatlarda hərbi-elmi fəaliyyətin təşkili müəyyən hissələrə (kateqoriyalara) bölünən və "Elmi-tədqiqat və təcrübi-konstruktor işləri" (ETTKİ), yəni quruculuq proqramı da daxil olmaqla silahlı qüvvələrin 5 illik inkişaf planına əsasən həyata keçirilir. Bu proqramlardan biri olan "Rəhbərlik və təminat" proqramının məğzi 5 illik planın yerinə yetirilməsi üzrə tədqiqat fəaliyyəti istiqamətlərini ehtiva edən müəyyən proqram elementləri əsasında araşdırmaların planlaşdırılmasından ibarətdir.

Müdafiə nazirliyində elmi işlərin təşkili prosesində əsas rolu analitik araşdırmalar məsələləri üzrə koordinator oynayır. O silah və hərbi texnika əldə edilməsi üzrə müdafiə nazirliyi müavini aparatının rəhbər tərkibindən təyin edilir. Onun səlahiyyətlərinə aşağıdakılar daxildir:

- müdafiə nazirliyinin maraqlarında olan araşdırmalara ümumi rəhbərliyi təmin etmək:

- ABŞ silahlı qüvvələrinin növləri, habelə bir sıra hökümət orqanları tərəfindən həyata keçirilən araşdırmalarla müdafiə nazirliyinin hərbi-nəzəri fəaliyyətini uzlaşdırmaq;

- müdafiə nazirliyi təşkilatlarında araşdırmaların qeydiyyatını və onlar arasında məlumat mübadiləsi gedişatını izləmək;

- müdafiə nazirliyinin elmi fəaliyyətinin qiymətləndirilməsinə dair icmal hesabatını hazırlamaq.

Bundan savayı, müdafiə nazirliyinin hər bir rəhbər orqanının analitik araşdırmalar koordinatoru (həmin orqanın sədrinə və ya xüsusi təyin edilmiş şəxsə tabedir) vardır. O, aşağıdakı əsas səlahiyyətləri yerinə yetirməlidir: ABŞ Müdafiə Nazirliyi koordinatoru ilə öz idarəsinin araşdırmalarının tədqiqatı məsələlərini uzlaşdırmaq; Müdafiə Nazirinin göstərişlərinə əsasən elmi fəaliyyətin ümumi istiqamətlərinin tədqiqatı təşkilinə nəzarət etmək; öz təşkilatı daxilində araşdırmaların həyata keçirilməsi üzrə planlaşdırılmasını, maliyyələşdirilməsini və nəzarətini əlaqələndirmək; ABŞ Müdafiə Nazirliyinin Hərbi-texniki İnformasiya

mərkəzi (HTİM) tərəfindən aparılan araşdırmalar barədə dolğun məlumatın vaxtı-vaxtında təqdim edilməsini nəzarətdə saxlamaq.

Amerika Birləşmiş Ştatlarında hərbi-elmi fəaliyyət hərbi planlaşdırmanın ümumi prinsipləri əsasında qurulur və hər bir təşkilat tərəfindən (illik) "Mühüm ehtiyacların (illik) ilkin planının" hazırlanmasını nəzərdə tutur. Bu sənəd, tələblərinə və resurslarına uyğun olaraq araşdırmaların ən vacib istiqamətlərini (maraqlı olan orqanın rəhbərliyinin fikrinə görə) özündə ehtiva edir. İlkin planlar ABŞ Müdafiə Nazirliyinin analitik araşdırma məsələləri üzrə koordinatoruna (əlaqələndiricisinə) təqdim olunur. O isə öz növbəsində onları ümumiləşdirir, tanışlıq və qiymətləndirmə üçün onları silahlı qüvvələrin növlərinin nazirlər aparatlarına, həmçinin digər mərkəzi hərbi idarələrə göndərir. Bu, biri-birini təkrarlayan tədqiqat istiqamətlərini müəyyənləşdirməyə imkan yaradır. Əldə edilmiş məlumatlar Müdafiə Nazirliyinin növbəti maliyyə ili üçün elmi araşdırmalar planının hazırlanmasında istifadə olunur və Müdafiə Naziri tərəfindən təsdiq edilir.

Hərbi-nəzəri fəaliyyətin təşkili üzrə mütəxəssislərin fikrincə, ilkin planların birgə təhlili fərqli təşkilatların ortaq maraqlarını aşkar etməyə imkan yaradır. Bu halda maraqlı tərəflər elmi-tədqiqat işlərinin maliyyələşdirilməsini və həyata keçirilməsini vahid proqram üzrə planlaşdırırlar. Məsələn: ABŞ və DİO (Daxili İşlər Orqanları) hərbi qüvvələrinin modernizasiya növlərinin müqayisəli təhlilini özündə təcəssüm etdirən araşdırma, ABŞ Müdafiə Nazirinin silah və hərbi texnikanın alınması üzrə müavini, Müdafiə Nazirinin proqramların qiymətləndirilməsi və təhlili üzrə köməkçisi və Müdafiə Nazirliyinin ümumi qiymətləndirmələr idarəsinin rəisi tərəfindən birgə hazırlanmışdır. Hərbi-elmi tədqiqat layihələri yalnız amerikan müəssisələrinin birgə səyləri nəticəsində həyata keçirilmir. Belə ki, buraya həmçinin NATO Müttəfiq Qoşunlarının ali baş komandanının Avropada tabeliyində olan müəssisələri də cəlb edilir.

Hərbi nəzəriyyə sahəsində olan tədqiqatların əsas hissəsi müqavilələr və müvafiq sazişlər üzrə həyata keçirilir. Elmi-tədqiqat işlərinin yalnız cüzi bir hissəsi Ali hərbi təhsil müəssisələrinin professor-müəllim heyəti və müavinləri tərəfindən tematik siyahılar əsasında aparılan hərbi-nəzəri işlərdən ibarətdir.

İş prosesinin təşkil olunması ABŞ Müdafiə Nazirliyinin 1986-cı ilin yanvar ayında dərc olunan Müdafiə Nazirliyinin nazir aparatları və idarələri, Silahlı Qüvvələr Komandanlığı, birləşmiş və xüsusi komandanlıqlarının JSC`ləri üçün keçərli olan "Müdafiə Nazirliyinə müqavilələr üzrə məsləhət xidmətləri" direktivi əsasında həyata keçirilir. Bu direktiv maliyyələşmə mənbəyindən, müqavilənin bağlanma forması və icraedici təşkilatdan asılı olmayaraq, silahlı qüvvələrin marağında aparılan bütün nəzəri fəaliyyəti əhatə edir.

Tədqiqatın təşkili prosesi üç tərəfin iştirakını nəzərdə tutur:

- Hərbi-elmi işin həyata keçirilməsində maraqlı olan, tədqiqat prosesinə nəzarət edən və onun nəticələrini müəyyən edən qurum;
- Sifarişi icra edən və onun keyfiyyətinə cavabdeh olan qurum;
- Müqavilənin rəsmiləşdirilməsi və yerinə yetirilməsi qaydalarına riayət olunmasına nəzarət edən rəsmi şəxs.

Tərəflərin qarşılıqlı razılığı əsasında müqavilə üzrə məsul şəxsin funksiyalarını sifarişçi icra edə bilər. Tədqiqatlar işlərin miqyasının genişlənməsini tələb etdiyi və ya işlərin xüsusi əhəmiyyətli xarakterini vurğuladığı halda, onların təşkilində (rəsmi tərəflərdən əlavə) Müdafiə Nazirliyinin məşvərətçi orqanları və ya ayrı-ayrı məsləhətçilər və silahlı qüvvələr üzrə mütəxəssislər iştirak edə bilərlər. Ayrı-ayrı hallarda, əgər sifarişçi tədqiqatı idarə etmək və ya onun həyata keçirilməsinə nəzarət etmək üçün kifayət qədər imkana sahib deyilsə, kömək üçün tədqiqat prosesinin təşkili üzrə xidmətlərin göstərilməsi sahəsində ixtisaslaşmış özəl firmalara, yaxud bilavasitə icraçıya müraciət edə bilər.

Bir çox hallarda güclü inzibati aparatlara sahib olan "RAND Corporation" (dünyadakı xalqların daha etibarlı, daha sağlam və daha firavan yaşamasına şərait yaratmaq üçün ictimai-siyasi problemləri həll etməyə çalışan araşdırma orqanıdır) [37] və Müdafiə Tədqiqatları İnstitutu kimi iri elmi-tədqiqat mərkəzləri sifarişçinin tədqiqat prosesinin səmərəli rəhbərliyinə marağını artırmaq məqsədi ilə verilmiş sifariş üçün öncədən səmərəli tədqiqatın həyata keçirilmə planını tərtib edirlər.

ABŞ Müdafiə Nazirliyinin maraqları çərçivəsində aparılan tədqiqatların icraçıları iki yerə bölünürlər: daxili və xarici  icraçılar.

Silahlı qüvvələrinin təşkilati-ştat strukturuna daxil olan elmi tədqiqat təşkilatları, hərbi qurumlarda xidmət edən mülki tədqiqatçılar daxili icraçılar hesab edilirlər. Özəl və ictimai elmi tədqiqat təşkilatları, universitetlərin araşdırma mərkəzləri, həmçinin müstəqil fəaliyyət göstərən analitiklər isə xarici icraçılar hesab edilirlər. ABŞ-da müdafiə nazirliyi tərəfindən maliyyələşdirilənxüsusi elmi tədqiqat təşkilatları kateqoriyası mövcuddur.

Daxili icraçı sifarişçilər üçün hazırlanan və içərisində elmi tədqiqat mərkəzlərinin funksional məqsədləri və əsas fəaliyyət istiqamətləri qeyd edilmiş siyahıları olan müvafiq sənədlərin köməkliyi ilə müəyyən edilir. Müdafiə Nazirliyi çərçivəsində icraçı axtarışının digər bir üsulu isə Hərbi-Texniki Məlumat Mərkəzinə müraciətdir.Bu müraciətdə hərbi məqsədlərlə nəyin, kim tərəfindən, nə vaxt, harada, necə, hansı əsaslarla və hansı maliyyə xərcləri ilə həyata keçirilməsi barədə məlumatlarqeyd olunur. Beləliklə, tədqiqat mövzusuna yaxın əlaqəsi (təcrübəsi) olan icraçı axtarılır (tapılır), daha sonra isə sifarişçi işin təşkilatçısı və icraçısı ilə müqavilənin bağlanması üçün əlaqə yaradır.

Əsas saziş və iş sorğusu müqavilənin ekvivalentləridir. Əsas saziş bir qayda olaraq, sifarişçi və icraçı arasında qeyri-rəsmi danışıqlar əsasında formalaşır. Sazişin bağlanmasından sonra planlaşdırılan tədqiqat hərbi elmi tədqiqat qurumunun fəaliyyət proqramına daxil edilir, onun barəsində məlumatlar isə Müdafiə Nazirliyinin informasiya sisteminə ötürülür. Sifarişçiyə tədqiqat layihəsinin təkmilləşdirilməsi və ya dəyişdirilməsi lazım olarsa, o icraçıya yeni tələbləri və gözlənilən əlavə xərclərin məbləğini özündə əks etdirən yazılı göstəriş ünvanlayır. İş sorğusu işə dair tələblərin qısa təsvirini və tədqiqatın məqsədini ətraflı izah edən məktubdan ibarət olur. O, operativ şəkildə məqsəd təyin etmək lazım olduqda istifadə olunur. Sorğu icraçı tərəfindən qəbul edildikdən sonra saziş statusu alır və sadə müqavilə kimi maliyyələşdirilir.

Sifarişçi telefon danışıqları və ya tərəflərin nümayəndələrinin şəxsi əlaqələr vasitəsilə hərbi elmi tədqiqat mərkəzi tərəfindən həyata keçirilən tədqiqata nəzarət edir. Xarici içraçı daxilində aşağıdaki bölmələri əks etdirən aylıq məruzə təqdim etməlidir:

- Əsas iştirakçıların siyahısı;
- Müdafiə Nazirliyinin və digər hökumət təşkilatlarının informasiya və texniki imkanlarından istifadə;
- İşin hazırki vəziyyəti;
- Tədqiqatın ötən müddət ərzində əldə edilmiş nəticəsi;
- Maliyyə hesabatı.

ABŞ Müdafiə Nazirliyinin hər bir  tədqiqat mərkəzi, sifarişlər üzrə həyata keçirdiyi işlərdən əlavə olaraq öz tədqiqat proqramını hərbi əhəmiyyətli elmi tədqiqat işlərinin həyata keçirilməsi üçün nəzərdə tutulan büdcədən maliyyələşdirir. Bu proqrama uyğun olaraq Müdafiə Nazirliyinin elmi tədqiqat müəssisələri müstəqil şəkildə hazırlanan layihələr üzrə işlər təşkil edirlər.

Hərbi-nəzəri xarakterli tədqiqatlar üzrə sifarişlərin böyük hissəsi xarici icraçıların payına düşür. Amerikan ekspertlərin qiymətləndirmələrinə əsasən, onlar bütün hərbi elmi tədqiqat işlərinin 2/3 hissəsini həyata keçirirlər. Elmi-analitik potensialın böyük hissəsi özəl sektorda, akademik təşkilatlarda və Müdafiə Nazirliyi tərəfindən maliyyələşən elmi tədqiqat mərkəzlərində cəmləşir. Onlar güclü inzibati aparata sahibdirlər. Bütün bunlar onların xidmətlərini Pentaqon üçün əlverişli edir. Sifarişçi təşkilatlar və onların hazırda mülki tədqiqat mərkəzlərində fəaliyyət göstərən keçmiş əməkdaşları arasında sıx əlaqələrin saxlanılmsı xarici icraçıların geniş formada cəlb edilməsində xarakterik xüsusiyyətlərindəndir.

Müdafiə Nazirliyinin müəssisəsinin rəhbərləri xarici icraçıların işlərinə tələblər təklif etmək və təsdiq etmək hüququna malikdirlər.

Tədqiqatların həyata keçirildiyi zaman sifarişçinin əsas məqsədləri aşağıdakılardır:

- Müvafiq tədqiqat təşkilatlarının axtarışı və onların arasında müsabiqənin keçirilməsi üçün bazanın formalaşdırılması;
- Ən yüksək keyfiyyətli icraçıların seçilməsi;
- Sazişin bağlanması;
- Müdafiə Nazirliyinin və digər hökumət təşkilatlarının məlumat və texniki bazasının icraçıya təqdim edilməsi;

- Müqavilə öhdəliklərinə ciddi riayət olunması;
- Tədqiqatın gedişatına nəzarət edilməsi;
- Tədqiqat işlərinin maliyyələşdirilməsi;

Müqavilə əsasında hərbi sifariş alan elmi tədqiqat təşkilatı, sadəcə inzibati funksiyaları saxlamaqla, işi bütünlüklə və ya işin bir hissəsini digər təşkilata (subpodratçı) ötürmək hüququna malikdir.

Bəzi hallarda icraçılara müqavilədə nəzərdə tutulan həcmdən artıq iş görməyə icazə verilir. Belə xarakterli fəaliyyət ABŞ-ın Müdafiə Nazirliyi tərəfindən dəstəklənir, çünki hesab edilir ki, bu hərbi elmin inkişafına xidmət edir. Plandankənar işin həcmi sifarişçi ilə müzakirə olunur.

Hərbi-texniki Məlumat Mərkəzi hərbi-elmi tədqiqatların təşkil olunmasında əhəmiyyətli yardım göstərir. Müdafiə Nazirliyinin tədqiqat işi həyata keçirmək istəyən hər bir orqanı artıq baş tutmuş və ya hal-hazırda həyata keçirilirən işi təkrarlamadığından əmin olmaq üçün Hərbi-texniki Məlumat Mərkəzinə mütləq şəkildə sorğu göndərməlidir. Sorğunun nəticələri sənədləşdirilir və sifarişçinin sənədində saxlanılır. Sənəd beş il ərzində saxlanılır, lakin lazım gələrsə, daha uzun müddət də saxlanılır. Sifarişçi sənədi aşağıda qeyd olunan məlumatları əks etdirir:

- Müqavilənin bağlanma üsulu və qiyməti (müsabiqə üzrə və ya müsabiqədənkənar);
- İcraçı təşkilatın adı;
- Tədqiqatın aparılmasının zəruriliyinin, sifarişçinin əldə etmək istədiyi nəticələr, onun tələbatları və qarşılarında dayanan tədqiqat məqsədlərinin birinciliyi (prioritetliyi) göstərilməklə əsaslandırılması;
- Tədqiqat zamanı edilən kəşflər və nəticələr;
- İş üzrə nəticələr və tövsiyyələrə uyğun olaraq həyata keçirilən tədbirlər;
- İcraçının reallığının (həqiqiliyinin) qiymətləndirilməsi.

Amerikan mütəxəssislərin fikrincə bəzi hallarda hərbi-nəzəri tədqiqatların nəticələri dərhal və effektiv istifadə olunur, yəni istənilən effekt ilk başdan əldə edilmir. Bəzən onların reallaşdırılması qeyri-müəyyən vaxta qədər təxirə salınır və ya ümumiyyətlə mümkünsüz olur.Tədqiqatın nəticələri elektron hesablama

maşınlarına daxil edilə və ya məlumat bankının zənginləşdirilməsi üçün arxivə göndərilə bilər. Hərbi ekspertlər hesab edirlər ki, hər bir tədqiqatın səmərəliliyi ən başda araşdırılan problemin qəlizliyindən, icraçının analitik qabiliyyətlərindən, işin nəticələrinin vaxtlı vaxtında təqdim edilməsindən, həmçinin tədqiqat proresinin idarəçiliyinin keyfiyyətindən asılıdır. Pentaqonun sənədlərində bütün hərbi-elmi tədqiqatların nəticələrindən bütünlüklə istifadə imkanı etiraf edilir. Lakin sənədlərdə daima hərbi-elmi işin təşkilinininkişaf etdirilməsi vasitəsi ilə onun səmərəliliyinin artırılması uğrunda mübarizənin zərurəti vurğulanır [36].

Hərbi-elmi fəaliyyətin təşkilində əsas rol ABŞ Müdafiə Nazirliyi və silahlı qüvvələrin hərbi elmin inkişafının əsas istiqamətlərini müəyyən edən və ölkənin xüsusi əhəmiyyətli hərbi elmi tədqiqat müəssisələrinin fəaliyyətini koordinasiya edən qərargah rəisləri komitəsinə aiddir. Pentaqonun yanaşmalarına uyğun olaraq fundamental və tətbiqi tədqiqatlar silahlı mübarizə sahəsində biliklərin genişləndirilməsinə və konkret elmi-praktik tapşırıqların optimal həlli yollarının axtarışına istiqamətləndirilmişdir.

Hazırda ABŞ hərbi idarə sistemində elmi fəaliyyətin aparıldığı 4 istiqaməti qeyd etmək olar:

1) hərbi-siyasi;
2) operativ-strateji;
3) hərbi-texniki və hərbi-iqtisadi.

Hər bir istiqamətə, bu sahələrdə tədqiqat işinin təşkilinə və əldə olunmuş nəticələrin praktikada tədbiqinə cavabdeh olan müvafiq vəzifəli şəxslər və idarəetmə orqanları tərəfindən nəzarət edilir.

Hərbi-siyasi tədqiqatlar Müdafiə Nazirinin siyasi məsələlər üzrə müavinin ümumi rəhbərliyi altında, Milli Müdafiə Universitetinin bazasında həyata keçirilir (Fort-Mak-Neyr, Vaşinqton şəhəri, Kolumbiya federal dairəsi). Hərbi-siyasi tədqiqatların nəticələri “Milli Təhlükəsizlik Strategiyası” və “Milli Müdafiə Strategiyası” kimi əsas strateji planlaşdırma sənədlərinin hazırlanmasında istifadə olunur.

Hərbi-texniki və hərbi-iqtisadi istiqamətlər Müdafiə Nazirinin satınalmalar, texnologiyalar və təhcizat üzrə müavinin nəzarətindədir. Bunlara Pentaqonun elm üzrə şurası, Müdafiə Nazirliyinin elmi tədqiqat işləri və texnika üzrə idarəsi, Müdafiə Nazirliyinin perspektivli tədqiqat layihələri üzrə idarəsi (DARPA - Defense Advanced Research Projects Agency) və Satınalma Universiteti kimi qurumlar tabedir.

Hərbi-siyasi və operativ-strateji xarakterli elmi tədqiqatların böyük hissəsini Milli Təhlükəsizlik Universiteti icra edir. Milli Təhlükəsizlik Universiteti amerikan hərbi idarəsinin yeganə elmi-tədris mərkəzi hesab edilə biləcək müəssisəsidir.

Universitetin tərkibinə Milli Strateji Tədqiqatlar İnstitutu, Milli Hərbi Kollec, Silahlı Qüvvələrin Qərargah Kolleci, Beynəlxalq Təhlükəsizlik Problemləri Kolleci, İnformasiya Resurslarının İdarəedilməsi Kolleci, Resurslar sahəsində Milli Təhlükəsizlik və Strategiya məktəbi, Tətbiqi Strateji Araşdırmalar Mərkəzi, Kütləvi Qırğın Silahlarının Problemlərinin Öyrənilməsi Mərkəzi kimi əsas strukturlar daxildir.

Milli Strateji Tədqiqatlar İnstitutu beş mərkəzi özündə birləşdirir: strateji tədqiqatlar; Çinin hərbi problemlərinin öyrənilməsi; texnologiyalar və hərbi strateji siyasət; kompleks əməliyyatlar və konfliktlərin təcrübəsinin öyrənilməsi.

İnstitut ABŞ-ın milli təhlükəsizlik maraqları kontekstində beynəlxalq mühitin hazırki vəziyyəti və perspektivləri, eləcə də strateji planlaşdırma məsələləri ilə məşğul olur. İnstitutun əməkdaşları ümumilikdə dünyada və ayrı-ayrı bölgələrdə hərbi-siyasi situasiyanın hərtərəfli təhlil edir, Birləşmiş Ştatların təhlükəsizliyini təhdid edən mövcud və potensial təhlükələri qiymətləndirirlər. Vaşinqtonun xarici və müdafiə siyasəti, amerikan silahlı qüvvələrinin quruculuğu ilə əlaqəli problemlərin geniş spektri üzrə tövsiyələr tərtib edirlər. Bu tədqiqatlar ali hərbi-siyasi rəhbərlik tərəfindən “Milli Təhlükəsizlik Strategiyası”, “Milli Müdafiə Strategiyası”, “ABŞ Milli Hərbi Strategiyası” kimi sənədlərin hazırlanması zamanı nəzərə alınır.

Milli Hərbi Kollec hərbi və xarici siyasətin qarşılıqlı əlaqəsi, dövlətin hərbi qüdrətinin elementlərinin təhlili, hərbi strategiyanın hazırlanması, silahlı qüvvələrin

həm milli, həm də müttəfiqlərin maraqlarının qorunması məqsədi ilə elmi tədqiqat fəaliyyəti həyata keçirir. Bundan əlavə, kollecdə operativ incəsənət sahəsində tədqiqatlar aparılır.

Silahlı Qüvvələrin Qərargah Kollecində (Norfolk, Virginiya ştatı) silahlı qüvvələrin növlərinin planlaşdırılması və əməliyyatların aparılması zamanı əsas prinsipləri və qarşılıqlı fəaliyyət qaydaları, iri qoşun birləşmələrinin döyüş tətbiqi, silah və hərbi texnikanın, hərb elminin dünya üzrə inkişaf meylləri, nailiyyətlərin bu sahədə uğurlu əməliyyatların aparılmasına təsiri araşdırılır. Kollec Pentaqonun digər elmi tədqiqat təşkilatları, silahlı qüvvələrin növlərinin qərargahları, mülki elmi qurumlar ilə fəal əməkdaşlıq edir.

Güc strukturları, Resurslar və Qiymətləndirmə İdarəsi (J8) ən ciddi elmi potensiala malikdir. Onun funksiyasına aşağıdakılar daxildir:

- hərbi-strateji şəraitin modelləşdirilməsi;
- qüvvə və ləvazimatlara olan tələbatların qiymətləndirilməsi;
- ümumi təyinatlı qüvvələrin və nüvə güclərinin imkanlarının təhlili;
- silahlı qüvvələrin inkişafının planlaşdırılması; proqramlar və büdcənin təhlili; hərbi texnikanın və silah sistemlərinin istehsal proqramlarının qiymətləndirilməsi.

Bundan əlavə, idarəyə (J8) ölkənin milli təhlükəsizliyinə təhdid yaradan böhranlı situasiyaların və hərbi-siyasi şəraitin inkişafının proqnozlaşdırılması həvalə olunub.

ABŞ quru qoşunlarında hərbi-nəzəri tədqiqatlar quru qoşunlarının Tikinti üzrə Təhsil və Elmi Tədqiqatlar Komandanlığı (Fort-Yustis, Virginiya ştatı), quru qoşunları xidmətlərinin və qoşun növlərinin hərbi təhsil müəssisələri, həmçinin Müdafiə Nazirliyinin sifarişi ilə mülki qurumlar və elmi tədqiqat təşkilatları tərəfindan aparılır.

ABŞ Hərbi Hava Qüvvələrində isə hərbi-nəzəri bölmələri bunlardır: Hərbi Hava Qüvvələrinin Təlim və Kadr Hazırlığı Komandanlığı (Avbrandolf, Texas) və bu komandanlığının tərkibində hərbi-nəzəri, operativ-strateji və operativ-taktiki tədqiqatlar həyata keçirən Aviasiya Universiteti.

ABŞ Hərbi Dəniz Qüvvələrində HDQ komanda qərargah kollecinin bazasında Hərbi dəniz qüvvələrinin döyüş tətbiqi konsepsiyasının işlənməsi komandanlığı (burada eyni zamanda silahlı qüvvələrin digər növləri ilə birgə ABŞ hərbi dəniz qüvvələrinin tədbiqinin yeni forma və üsulları öyrənilir) konseptual elmi suallar ilə məşğul olur.

Sadalanan istiqamətlər üzrə fəaliyyət göstərən ən nüfuzlu təşkilatlar bunlardır: Atlantika Şurası (Atlantic Council), Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzi, RAND Corporation, Müdafiə Tədqiqatları İnstitutu, Brukinq İnstitutu (Brookings Institution), Potomak Siyasi Tədqiqatlar İnstitutu (Potomac Institute for Policy Studies), Beynəlxalq Münasibətlər üzrə Şura, Siyasi Tədqiqatlar İnstitutu, Ceymstaun Fondu.

Xüsusilə, Atlantika Şurası beynəlxalq və regional təhlükəsizlik problemlər ilə məşğul olur, hərbi-siyasi şəraitin təhlilini aparır, transatlantik tərəfdaşlığın möhkəmləndirilməsi məqsədi ilə ABŞ və NATO rəhbərliyi üçün tövsiyələr hazırlayır. Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzi beynəlxalq siyasət məsələlərini öyrənir, ayrı-ayrı ölkələrdə baş verən hadisələrin, o cümlədən Rusiyada və keçmiş SSRİ məkanında və dünyada geosiyasi vəziyyətin inkişafına olan təsirini qiymətləndirir. RAND Corporation milli təhlükəsizlik və müdafiə maraqlarında sistemli təhlil, oyunlar nəzəriyyəsi və strateji ssenarilər üzrə tədqiqatlarda ixtisaslaşır.

Hər il ABŞ hərbi büdcəsi çərçivəsində hərbi idarəyə elmi tədqiqat işlərinin həyata keçirilməsi üçün təxminən 70 mlrd. dollar ayrılır. Onlardan 2,5 mlrd. dollar fundamental tədqiqatların aparılması üçün nəzərdə tutulur. Təxminən 5 mlrd. tətbiqi xarakterli tədqiqatlar, 58 mlrd. artıq vəsait silah və texnikanın perspektivli sistemlərinin hazırlanmasına, modernləşdirilməsinə və tətbiqinə yönləndirilir. 4 mlrd. dollar inzibati və təmin edici funksiyaların yerinə yetirilməsi üçün ayrılır [35].

Bu vəsaitlərin əsas hissəsi hərbi sənaye kompleksinin özəl şirkətləri ilə bağlanmış müqavilələr üzrə perspektiv silah nümunələrinin və hərbi texnikanın yaradılması proqramına xərclənir. ABŞ Müdafiə Nazirliyinin Təhlükənin Azaldılması üzrə İdarəsi bu silah növünün tədbiqi nəticəsində yaranan xəstəliklərin

müalicəsi və aşkaretmə vasitələrinin araşdırılması ilə məşğul olur. Həmçinin bu İdarə Pentaqonun əsas strukturudur və təhlükənin qarşısının alınması və istifadəsinin nəticələrinin aradan qaldırılması yolu ilə dövlətin kütləvi qırğın silahlarından qorunmasına cavabdehdir. İdarə kütləvi qırğın vasitələrinin müxtəlif növlərinin dağıdıcı amillərdən qorunması, kəşfiyyat və xəbərdarlıq sistemlərinin hazırlanması, kütləvi qırğın silahlarının tədbiqi nəticəsində yaranan xəstəliklərin müalicəsi və aşkaretmə vasitələrinin yaradılması kimi sahələrdə elmi tədqiqat işləri aparır.

Hərbi-elmi təşkilatların ikinci kateqoriyası ABŞ Müdafiə Nazirliyinin, HHQ və HDQ komandanlıqları və idarələrin nəzdində olan ixtisaslaşmış tədqiqat laboratoriyaları və mərkəzləri ilə təmsil olunur.

Xüsusilə ABŞ Müdafiə Nazirliyinin tədqiqat laboratoriyaları informasiya-kommunikasiya şəbəkələri sahəsində tədqiqatlar, idarənin strateji, operativ və taktiki hissələrinin əlaqə sistemi, Hərbi Hava Qüvvələrinin erqonomikası, modelləşdirmə sistemi, döyüş şəraitində insanın imkanlarının artırılması, öldürücü təsirə malik olmayan silahların, şəxsi heyətin müasir daşınma vasitələrinin hazırlanması və maddi-texniki təminat ilə məşğul olur. Laboratoriyada təxminən 3.000 yaxın hərbi qulluqçu və mülki əməkdaş fəaliyyət göstərir.

Hərbi Hava Qüvvələri nazirliyinin tədqiqat laboratoriyası növbəti problemlər üzrə tədqiqatlar aparır: materialşünaslıq, informasiya texnologiyaları, perspektiv güc qurğuları, hipersəsli uçuş aparatları, ötürücülər və sensorlar, qeyri-ənənəvi silah sistemləri, informasiya mübarizəsi üsulları, yüksək dəqiqliyə malik Silah-sursat, insanın mürəkkəb aviasiya sistemlərinin idarəetməsinin səmərəliliyinin artırılması vasitələri.

Hərbi Dəniz Qüvvələri Nazirliyinin tədqiqat laboratoriyasının əsas istiqamətləri informasiya texnologiyaları, optik vəsaitlər, taktiki sistemlər, radiolokasiya vəsaitləri, biomühəndislik, materialşünaslıq, okeanşünaslıq, akustika, meteorologiya, ötürücü və sensor, kosmik texnologiyalar kimi istiqamətlərdir.

Üçüncü kateqoriyadan olan əsas hərbi-elmi təşkilalara, tam və ya qismən ABŞ Müdafiə Nazirliyinin büdcəsindən maliyyələşən bir sıra tədqiqat mərkəzləri aiddir. Onlara kosmik aparatların və sistemlərin, onların hazırlanma

texnologiyalarının və hazır məhsulun dəyərinin səmərəliliyinin analitik qiymətləndirməsini aparan “Aerospace” koorporasiyasının tədqiqat mərkəzi də aiddir.

Bu layihə konkret elmi-praktiki məsələlərin həlli məqsədilə tətbiqi tədqiqat işləri üçün Müdafiə Nazirliyinin büdcəsindən illik 250 mln. dollar (ayrı-ayrı qrant şəklində 2,5 mln.a qədər məbləğdə) ayrılmasını nəzərdə tutur. Onun həyata keçirilməsinin (artıq 25 il ərzində) nəticələri müasir silah və hərbi texnikanın yaradılmasında və hazırlanmasında uğurla tətbiq olunan yeni texnoloji həllərin meydana çıxmasına şərait yaradır [35].

Qeyd etmək lazımdır ki, ABŞ Müdafiə Nazirliyi hərbi təhsil müəssisələrinin və elmi tədqiqat təşkilatlarının birləşməsi yolu ilə böyük elm-təhsil mərkəzlərinin yaradılması ilə məşğul olmur. Belə yanaşma ondan irəli gəlir ki, ABŞ hərbi qüvvələrində dinləyicilərinə (kursantlarına) 4 illik tədris proqramı üzrə ali təhsil verən yalnız üç hərbi akademiya mövcuddur (hər silahlı qüvvə növündə bir akademiya). Eyni zamanda bu akademiyaların elmi potensialı Pentaqonun hərbi-elmi fəaliyyətinə dair ümumi planlarına uyğun olaraq tədqiqat işlərinə cəlb olunur.

Vaşinqtonda yerləşən və dünyanın ən nüfuzlu beyin mərkəzlərindən olan Hudson İnstitutunun Hərbi-Siyasi Təhlil Mərkəzinin Direktoru Riçard Veytsin “Azərbaycanın regional rolu: İran və digər bölgələr” (“Azerbaijan's Regional Role: Iran and Beyond”) adlı hesabatı dərc olunub. Beynəlxalq hərbi təhlükəsizlik üzrə məşhur “Müdafiənin ikinci xətti” adlı Mərkəz tərəfindən yayımlanan hesabat həm elektron, həm də kitab formasında nəşr edilib.

“Müdafiənin ikinci xətti” Mərkəzin ekspertləri ABŞ və Avropanın hərbi və təhlükəsizlik sahəsində nüfuzlu şəxslərindən ibarətdir. Həmin ekspertlər ABŞ-da hərbi və təhlükəsizlik sahəsində uzun illər çalışmış və çox yüksək vəzifələr tutmuş generallar, admirallar, nüfuzlu universitetlərin və beyin mərkəzlərin nümayəndələridir.

R.Veytsin “Azərbaycanın regional rolu: İran və digər bölgələr” adlı hesabatında qeyd edilir ki, SSRİ-nin dağılmasından sonra ABŞ-ın yaxın müttəfiqi olan Azərbaycan Respublikası digər müsəlman ölkələri üçün dini və etnik

müxtəliflik məsələlərinə uğurlu yanaşmaları ilə nümunə rolunu oynamaqdadır. Özünün dünyəvi siyasəti, müxtəlif dinlərə və xalqlara tolerant münasibəti ilə Azərbaycan çox səmərəli "yumşaq güc" əldə edib və digər müsəlman ölkələri üçün təcrübəsindən geniş istifadə edilə bilinəcək cəlbedici ölkəyə çevrilib. Buna görə də Azərbaycanın "yumşaq güc" potensialına hərtərəfli dəstək vermək qonşu İranın Yaxın Şərqdə və digər bölgələrdə təsirinin azaldılmasına xidmət edə bilər. Hesabatda bununla bağlı xüsusi qeyd edilir ki, Azərbaycanın artan "yumşaq güc"ü və Azərbaycan modeli nəinki İranda yaşayan etnik azərbaycanlılar üçün, habelə İranda yaşayan digər xalqlar, o cümlədən farslar üçün də olduqca əhəmiyyətlidir. Azərbaycanın "yumşaq güc"ü İranın hazırkı xarici siyasətinə qarşı ABŞ-ın qoya biləcəyi qeyri-hərbi vasitələr içərisində ən səmərəlilərdən biri ola bilər.

Giriş, nəticə və üç hissədən ibarət olan hesabatın birinci hissəsində Azərbaycanın müstəqillik əldə etdikdən sonrakı tarixi, artan "yumşaq güc"ü, habelə digər təsir imkanlarından bəhs edilir. Burada qeyd edilir ki, Azərbaycan dövlətinin strategiyası və ardıcıl siyasəti ona çox mürəkkəb və qeyri-sabit bölgədə post-Sovet "travma"sını geridə buraxmaq və müxtəlif sahələrdə geniş əməkdaşlıq üçün etibarlı tərəfdaşa çevrilə bilmək imkanı verib. 2011-ci ildə Azərbaycan özünün artan iqtisadi-siyasi gücü və beynəlxalq gərginliyin azalmasına etdiyi töhfələr sayəsində çox ciddi rəqib namizədlərin olduğu bir şəraitdə BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilib.

Hesabatın üçüncü hissəsi Azərbaycan-İran münasibətlərinə həsr edilir. Bu münasibətlərin mühüm məqamları ortaq tarix, mədəni və dini yaxınlıq, iqtisadi münasibətlər, ən əsası isə geostrateji rəqabətdir.

Hesabatda həmçinin qeyd edilir ki, Azərbaycan 11 sentyabr terror aktından sonra ABŞ-a terrorizmə qarşı mübarizədə qeyri-şərtsiz yardım etmək üçün hazır olduğunu bildirən ilk ölkələrdəndir. Azərbaycan eyni zamanda Əfqanıstanda taliblərin hakimiyyətdən devrilməsi, hərbi əməliyyatların gedişi zamanı və hazırda NATO-nun silahlı qüvvələrinin bu ölkədən çıxarılması prosesində əvəzsiz rola malikdir.

Bundan əlavə, Azərbaycan qlobal miqyasda ABŞ-ın enerji strategiyasında və maraqlarında mühüm rol oynayır. Xəzər və Mərkəzi Asiyanın enerji resurslarının Avropa bazarlarına çıxarılması zamanı alternativ dəhlizin əsas ölkəsi olan Azərbaycan bu bazarlarda Rusiya və İran kimi ölkələrin öz enerji resurslarından siyasi məqsədlərlə təzyiq vasitəsi kimi istifadə imkanlarını azaldır. Hesabatda o da vurğulanır ki, ABŞ şirkətləri 1990-cı illərdən başlayaraq Azərbaycanın neft sektorunda geniş fəaliyyət göstərir, Azərbaycan isə BMT-nin Təhlükəsizlik Şurasının üzvü kimi digər mexanizmlərlə də ABŞ-ın regional və qlobal maraqlarının təmin olunmasında yaxından iştirak edir. Hesabatın nəticə hissəsində yuxarıda göstərilən məqamları nəzərə alaraq, ABŞ rəhbərliyinə Azərbaycanla bağlı siyasətində Azərbaycanın regionda oynadığı rolu nəzərə almaq və qiymətləndirmək, habelə bu ölkəyə regionda oynadığı rola görə dəstək vermək tövsiyə edilir.

Bütün bunlardan belə nəticəyə gəlmək olar ki, mövcud hərbi-siyasi vəziyyətin, elmi-texniki tərəqqinin sürətlə dəyişməsi, hərbi sahədə yüksək inkişaf Pentaqon nümayəndələrinin etiraf etdiyi kimi, Amerika silahlı qüvvələrinin fəaliyyətində hərbi nəzəriyyənin rolunu artırır. Araşdırmalara əsaslanan və son illər ərzində həyata keçirilən silahlı qüvvələrin inkişaf proqramının düzgün istiqamətləndirilməsi nəticəsində hərbi sahədən əldə olunan gəlirlərinbu sahəyə sərf olunan xərcləri dəfələrlə üstələməsi buna bir sübutdur. ABŞ öz “Milli Təhlükəsizlik Strategiya”larını, “Milli Müdafiə Strategiya”larını hazırlayarkən hərbi-strateji tədqiqat mərkəzlərinin araşdırmalarına əsaslanır. Bu tətqiqat mərkəzlərində hər bir region üzrə mütəxəssislərin olması ABŞ-ın öz xarici siyasətini və hərbi strategiyasını düzgün istiqamətləndirməkdə müstəsna rola malikdir.

# NƏTİCƏ

Bu gün dünyada ABŞ-ın hegemon dövlət kimi tanınmasının ən əsas göstəricisi onun hərbi gücüdür. O dünyanın istənilən nöqtəsində təsir imkanına malikdir. Həyata keçirdiyi hərbi-siyasi fəaliyyət isə onun xarici siyasətinin tərkib hissəsidir. Belə ki, ABŞ-ın həyata keçirdiyi hərbi fəaliyyətlər federal qanunvericiliklə tənzimlənir. Eyni zamanda ABŞ-ın təhlükəsizliyinə qarşı olan təhdidlər də onun yeni milli təhlükəsizlik, hərbi və müdafiə strategiyalarının yaranmasına səbəb olur. 2001-ci ilin 11 sentyabrında baş verən terror hücumları ABŞ-ın XXI əsr üçün yeni xarici siyasət kursunu müəyyən etdi. Belə ki, ABŞ-ın üzləşdiyi bu terror aktları onun istər siyasi, iqtisadi istərsə də, hərbi sahədə təhlükəsizlik sistemində köklü dəyişikliklərin baş verməsinə zəmin yaratdı.

Dünya Ticarət Mərkəzinə və Pentaqona təşkil edilən hücumlar ABŞ-ı bu vaxta qədər vərdiş etmədiyi terror növüylə üz-üzə qoyaraq həm Amerika rəsmi dairələrini, həm beynəlxalq təşkilatları, həm də beynəlxalq əlaqələr üzrə mütəxəssisləri müasir dövrdə tətbiq olunan yeni nəzəiyyələr üzərində daha çox işləməyə vadar etdi. Məhz bu hadisələr bütün dünyada şok effekti yaratdı. Çünki ən qüdrətli dövlət hesab olunan ABŞ-da belə miqyasda terror hadisəsinin reallaşdırıla biləcəyi inanılmaz idi. ABŞ da öz növbəsində terror aktının baş verdiyi ilk andan terrorçuların məhv edilməsi istiqamətində konkret güc siyasətinə start verdiyini bəyan etdi. Hadisənin miqyası və xarakteri bəşəriyyət üçün sarsıdıcı oldu. Bunun nəticəsində dövlətlərin böyük əksəriyyəti ABŞ-a dəstək verməyə başladılar. Beləliklə də qlobal antiterror koalisiyası formalaşdı. Məlum olduğu kimi koalisiyanın ilk müdaxilə etdiyi ölkə Əfqanıstan oldu. Çünki 11 sentyabr hadisələrini törədən "Əl-Qaidə" terror təşkilatı əsasən bu ölkədə məskunlaşmışdı. Koalisiyada hətta Rusiya da iştirak edirdi. Bu isə qlobal terror təhlükəsinin nə qədər ciddi olduğunu ortaya qoyur. Əfqanıstandan sonra isə terrorizmlə və kütləvi qırğın silahlarının yayılması ilə mübarizə siyasətinin davamı kimi İraqa hərbi müdaxilə oldu. Ancaq İraqda KQS-nin olması sübut olunmadı.

ABŞ-ın dünyada baş verən proseslərdə güclü təsirə malik olması danılmazdır. Demək olar ki, ABŞ yeganə ölkədir ki, dünyanın bütün regionlarında ona məxsus hərbi bazalar mövcuddur. Məhz bu onu deməyə əsas verir ki, o istənilən yerdə baş verən proseslərə ən tez reaksiya verən bilən tək fövqəlgücdür. Ümumilikdə ABŞ hərbi bazalarının yerləşmə coğrafiyasını geosiyasi baxımdan təhlil etdikdə bir neçə məqam diqqəti cəlb edir. Birinci məqam ən böyük hərbi bazalar ABŞ-la " xüsusi münasibətlər"ə malik Britaniya, İsrail, Koreya Respublikası və İkinci Dünya Müharibəsini uduzduqdan sonra bərpa işlərini ABŞ-ın dəstəyi ilə aparan Almaniya və Yaponiyada yerləşir.

İkinci məqam budur ki, ABŞ hərbi bazaları hərbi əməliyyatlar və qaynar nöqtələr hesabına daim genişlənir. Belə ki, Koreya müharibəsi, Filippin azadlıq hərəkatı, Küveyt, Balkan, İraq, Əfqanıstan müharibələri bu region və ölkələrdə ABŞ hərbi bazalarının yaradılması ilə nəticələnmişdir. 11 sentyabr hadisələrindən sonra isə həmin vaxta kimi əlçatmaz görünən – Post-Sovet məkanında (Özbəkistan və Qırğızıstan) ABŞ hərbçilərinin olduğu məlum oldu. Yəni hər bir müharibə və ya münaqişənin nəticələrindən biri çox vaxt ABŞ-ın həmin ərazilərdə hərbi baza yaratmasına şərait yaradır. Taktiki baxımından müharibə və münaqişə ocağı ABŞ-ın hərbi təsir dairəsinin genişləndirilməsi üçün stimullaşdırıcı rol oynayır.

Digər diqqət çəkən bir məqam isə neftlə zəngin bölgələr və neft marşrutları, ticarət yolları, nəqliyyat dəhlizlərinə nəzarət nöqtələri üzərində ABŞ hərbi bazalarının cəmlənməsidir. Demək olar ki, dünyanın neftlə zəngin bütün bölgələri ətrafında ABŞ hərbi bazaları mövcuddur. Münaqişələr isə bu bölgələrə daxil olmaq üçün sanki bir vasitədir. Məsələn, Küveyt müharibəsindən sonra ABŞ İran körfəzi hövzəsinə (Bəhreyn, Qatar, Oman) daxil oldu, İraq müharibəsi zamanı isə regionun digər ölkələrində öz hərbi bazalarını yaratdı. Hazırda bu region ABŞ-ın hərbi bazalarının ən çox cəmləşdiyi bölgələrdən biri hesab edilir. Hətta mühüm su yollarının üzərində də (Panama, Cibuti, Malayziya, Oman və s.) amerikan hərbçilərinin nəzarəti vardır. Bu mənada son illər müşahidə olunan əsas məqamlardan biri ABŞ-ın hərbi bazalarının geoiqtisadi mərkəzlərə doğru

yönəlməsi ilə bağlıdır. Ən sonuncu məqam isə, XXI əsri əsas prioritet istiqamətlərindən biri sayılan Asiya-Sakit Okean regionunda ABŞ-ın hərbi fəaliyyətini gücləndirməsi və bu regionda güclü təsirə malik olmağa çalışmasıdır. Bu regionun rəsmi Vaşinqton üçün önəmli olmasının əsas səbəbi sürətli inkişaf edən və ABŞ üçün güclü rəqib olan Çin faktorudur. Beləliklə, yeni geosiyasi şəraitdə və perspektivə hesablanmış proqnozlara əsasən iddia etmək olar ki, müxtəlif iqtisadi maraqların olmasına baxmayaraq ABŞ xarici siyasətində hərbi bazaların yerləşdirilməsinə ilk növbədə ölkənin geosiyasi ambisiyaları təsir göstərir. Dünyadakı qaynar nöqtələr və bu hərbi bazaların sinxron asılılığı isə vəziyyəti bir qədər də mürəkkəbləşdirir.

Bütün bunlardan əlavə dünyada mövcud hərbi-siyasi vəziyyətin, elmi-texniki tərəqqinin sürətlə dəyişməsi, hərbi sahədə yüksək inkişaf, Pentaqon nümayəndələrinin etiraf etdiyi kimi, Amerika silahlı qüvvələrinin fəaliyyətində hərbi nəzəriyyənin rolunu artırır. Araşdırmalara əsaslanan və son illər ərzində həyata keçirilən silahlı qüvvələrin inkişaf proqramının düzgün istiqamətləndirilməsi nəticəsindəhərbi sahədən əldə olunan gəlirlərinbu sahəyəsərf olunan xərcləri dəfələrlə üstələməsi buna bir sübutdur. ABŞ öz “Milli Təhlükəsizlik Strategiya”larını, “Milli Müdafiə Strategiya”larını hazırlayarkən hərbi-strateji tədqiqat mərkəzlərinin araşdırmalarına əsaslanır. Bu tətqiqat mərkəzlərində hər bir region üzrə mütəxəssislərin olması ABŞ-ın öz xarici siyasətini və hərbi strategiyasını düzgün istiqamətləndirməkdə müstəsna rola malikdir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

**Azərbaycan dilində:**

1. Beynəlxalq terrorizm və onun Azərbaycana mənfi təsiri: Metodik vəsait / D.Bayramovun redaktəsi ilə. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2009, 51 s.
2. Bədəlov Ə. Terrorizm qorxunc bəşəri kabus kimi dünyanın hər yerinə ayaq açır, "Xalq qəzeti" //http://www.xalqqazeti.com
3. Dünyanın dəyişildiyi gün-11 sentyabr, 11 Sentyabr 2015 //http://news.milli.az/world/368314.html
4. Hacıyev S. Yaxın və Orta Şərqdə separatçı terrorizm: Hədəf Türkiyə və Azərbaycan, "Dirçəliş-XXI əsr", 2004, yanvar, N 71.
5. Həbibbəyli Ə. "Hərbi bazalar – demokratik xarici siyasətin əsas aləti" //http://newtimes.az/
6. İbadi A. ABŞ-ın xaricdəki 351 000 nəfərlik ordusu hansı ölkə və bazalarda yerləşir? // "FARS News Agency" (İran),11.06.2015 //http://strateq.az
7. İbrahimliZ. 240 ilin ABŞ-ı: Qlobal imperiya, yoxsa "demokratiya beşiyi"? //http://strateq.az/
8. Nəsirov E. ABŞ-ın antiterror doktrinası və onun tətbiqi mexanizmləri. Bakı, Elm və Təhsil, 2010
9. Nəsirov E. ABŞ və beynəlxalq terrorizm problemi. Bakı 2010, s.320
10. Nəsirov E. ABŞ və dünya 11 sentyabrdan sonra. Bakı "Adiloğlu" nəşriyyatı 2003, s.262
11. Orxan V. "525-ci qəzet", 11.09.2006. //http://www.azerbaycanli.org/az/news-358.html
12. Tağıbəyli V. İranı mühasirəyə alan Amerika hərbi bazaları, 08.02.2017 //http://hafta.az/

13. Yaqubov Y. Terrorizm: yaranma səbəbləri və şəraiti, s.13 //http://qesam.org/ust/2/3/04.pdf

**Türk dilində:**

14. Armağan C. D. ABD Ulusal Güvenlik Stratejisinin Şifreleri ve Türkiye, ASSSA Stratejik Araştırma Merkezi, Ocak 2013 //http://www.asssastratejibulteni.com
15. Başkan Bush'un American Enterprise Institute'de yaptığı konuşma, 26 Şubat 2003, //http://georgewbushwhitehouse.archives.gov/
16. BinzatG. Amerikan Belgelerinde Pasifik Stratejisi // http://www.21yyte.org/
17. Carter J. ABD'nin Nükleer Çifte Standardı Barışın Altını Oyuyor, The Daily Star, 20 Eylül 2007.
18. Erhan Ç. ABD-nin Ulusal Güvenlik Anlayışı, Ankara Üniversitesi Siyasal Bilgiler Fakültesi s.93, //http:// dergiler.ankara.edu.tr/
19. Emperyalist ABD'nin Afrika'daki Askeri Üslerine Bir Yenisi Ekleniyor //http://www.haksozhaber.net/
20. En büyük petrol müşterisi ABD ordusu, NTVMSNBC, 30.11.2012 //http://www. Nt vmsnbc.com/
21. En Çok Nükleer Silah Hangi Ülkede?, TRT HABER, 28.03.2012 //http://www.trthaber.com/
22. Ereli G. ABD'nin Yumuşak Güç Unsurları, Kirikkale Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Uluslararasi İlişkiler Bölümü Lisans Bitirme Tezi //https://www.academia.edu/
23. General Odierno'nun Kongre'deki 30 Eylül 2009 tarihli ifadesi, //http://armedservices.house.gov
24. Kandemir E. ABD Başkanları G.W. Bush ve B. Obama Dönemlerinde Yayımlanan Ulusal Güvenlik Stratejilerinde İttifak Söylemleri ve S.Walt'un İttifak Teorisi", Savunma Bilimleri Dergisi, Kasım 2011, //http://www.kho.edu.tr/

25. Latin Amerika'da ABD üsleri //http://haber.sol.org.tr/
26. Obama ve Medvedev nükleer anlaşmayı imzaladı, BBC TÜRKÇE, 08.04.2010 //http:// www.bbc.co.uk/
27. Öçalan G.Soğuk Savaş Sonrası ABD Ulusal Güvenlik Stratejileri, Abant İzzet Baysal Üniversitesi, Sosyal Bilimler Enstitüsü, Uluslararası İlişkiler, 20 Şubat 2014
28. Özeren S., Cinoğlu H., Sever M. ABD'nin Afganistan ve Irak'ta terörle mücadele politikası s.36 //www.utsam.az
29. Öztürk T. E. Barack Obama İmajı Üzerinden Amerikan Dış Politikasının Yeniden İnşası, 11.07.2009.
30. Uluslararası Siyaset ve Güvenlik, Küresel Güvenlik Kompleksi, E. B. Paker İletişim Yayınları, 1. Baskı, 2012, s. 18.
31. Yilmaz S. ABD Silahli Kuvvetleri'nde Dönüşüm ve Yeni Savunma Stratejisi 2012 s.12 //http://usam.aydin.edu.tr/
32. Yılmaz S. Ulusal Savunma Strateji, Teknoloji, Savaş, Kumsaati Yayınları, İstanbul, 2009
33. Washington'un Batı Asya'da askeri üsler tesis etmesinin 5 nedeni, 20 Eylül 2016 Salı , www.medyasafak.net
34. 11 Eylül 2001 Terör Saldirilarinin Amerikan Güvenlik Bürokrasisine Etkileri"Akademik Bakiş Dergisi Sayı: 34 Ocak – Şubat 2013 Uluslararası Hakemli Sosyal Bilimler E-Dergisi s.19 //http://www.akademikbakis.org.

**Rus dilində:**

35. Смирнов Р.Организация в США военно-научной деятельности //http://pentagonus.ru/
36. Якушев С.Организация военно-научных исследований в МО США? // http://pentagonus.ru/

**İngilis dilində:**


37. About the Rand Corporation //https://www.rand.org/
38. Aggour L. S.The Strategy of Containment in Fighting Terrorism. Strategic Insights, California, p.7 //http://calhoun.nps.edu/
39. Bush sends Iraq war letter to Congress, White House: Americans need to be prepared for deaths, Wednesday, March 19, 2003 //http://edition.cnn.com/
40. Clinton. H.R., America’s Pacific Century, Foreign Policy, 2011 //http://www.foreignpolicy.com/
41. Davis L. E., Pettyjohn S. L., Sisson M. W., Worman S. M., M. J. McNerney. U.S. Overseas Military Presence-What Are The Strategic Choices. Rand Cooperation, 2012 //http://www.rand.org/
42. Dufour J. The Worldwide Network of US Military Bases, Global Research, 01.07.2012 //http://www.globalresearch.ca/
43. Frost P., Unintended Consequences of an Expanded U.S. Military Presence in the Muslim World, Institute for the Study of Diplomacy, Spring 2003 //isd.georgetown.edu/
44. Holmes K. R., Nau H. R., Dale H. : The Obama Doctrine: Hindering American Foreign Policy, November 29, 2010
45. Hans Blix's briefing to the security council //https://www.theguardian.com/
46. İSAF Troop Contributing Nations //http://www.nato.int/
47. Military Analysis: Us Military Presence In Europe, https://southfront.org/
48. National Security Strategy. February 2015 p.35 //https://obamawhitehouse.archives.gov/
49. National Security Strategy. The Whitehouse, Aralık 2011 //http://www.whitehouse.gov/
50. NATO and Afghanistan, 13 Oct. 2016 //http://www.nato.int/
51. Priest D. Aging U.S. nuclear arsenal slated for costly and long-delayed modernization. The Washington Post, 15.09.2012 //http://articles.washingtonpost.com/

52. Perl R. Terrorism, the Future and U.S. Foreign Policy // Congressional Research Service , 2003.
53. Pillar R. Terrorism and U.S. Foreign Policy. Washington D.C.: Brookings Institution 2001.
54. PowersR, The "Basics" of the United States Military, September 19, 2016 //https://www.thebalance.com
55. Shah A. World Military Spending, Global Issues, 06.05.2012 //http://www. globalissues.org/
56. Surveillance Under the USA Patriot Act //http://www.aclu.org/
57. Sustaining U.S. Global Leadership: Priorities 21st Century Defense, January 2012 p.16 //http://archive.defense.gov
58. The National Security Strategy of the United States of America, September 2002, p.31
59. The National Military Strategy of the United States of America 2015, June 2015, p.30 http://www.jcs.mil/
60. The 9/11 Comission Report: Final Report of the National Commission on Terrorist Attacks Upon the United States, , official government edition, U.S. Government Printing Office , 2004
61. United Nations Security Council Resolution 1386, Adopted by the Security Council at its 4443rd meeting, on 20 December 2001.
62. United Nations Security Council Resolution 1413, Adopted by the Security Council at its 4541st meeting,on 23 May 2002.
63. US Senate Armed Services Committee. Hearing on the Nuclear Posture Review, February 14 2006